14_27 IYUl-QARA.qxd 4/16/2026 9:28 PM Page 1


# UNİKAL

№14 (2294) 17 aprel 2026-cı il

Qiyməti 50 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.az




# Bahalaşmanın yeni dalğası gözlənilir - İnhisarçılarla nə etməli?



Səh.8

## İranın dəniz blokadası müharibənin taleyini müəyyən edə bilər - TƏHLİL

*Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp sərt hərbi müharibədən yan keçərək, İran gəmiləri və limanlarına dəniz blokadası ilə iqtisadi müharibəyə yönəlib. Bu, ABŞ və İsrailin yeni hücumu olmadan müharibəyə son qoymaq cəhdidir. rampın yeni İran blokadası ilə bağlı ən böyük sual, uğursuz olarsa nə baş verəcəyi deyil, işə yarayıb-yaramayacağıdır. Sözügedən dəniz blokadasının məntiqi budur ki, əgər İran öz neftini ixrac edə və həyati əhəmiyyətli malları idxal edə bilməsə, o qədər dağıdıcı maliyyə və insani nəticələrlə üzləşəcək ki, müharibəni dayandırmaq üçün Amerikanın şərtlərini qəbul etməkdən başqa çarəsi qalmayacaq. Bu, ağlabatan bir seçim ola bilər. Sanksiyalardan onsuz da ciddi şəkildə zərər görən iqtisadiyyat tez bir zamanda...*

Səh.9

## “Mərkəzdə torpaq sahələri həddindən artıq yüksək qiymətə satılır”



*Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin İdarə Heyətinin sədri Vüqar Oruc ”Unikal”a müsahibə verib. O, subasma qeydə alınan ərazilərdəki evlərin qiymətinin necə dəyişəcəyindən, hazırda paytaxtın hansı ərazilərində evlərin qiymətinin bahalaşmasından, Bakının hansı ərazilərində söküntünün aparıla biləcəyindən...*

Səh.4

## Zəngilanda Rusiya-Azərbaycan komissiyası birgə yol xəritəsi imzaladı



*Aprelin 16-da Zəngilan şəhərində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 24-cü iclası keçirilib. Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən sədri, Baş nazirinin müavini Şahin Mustafayev və Hökumətlərarası...*

Səh.3

## “Qanunsuz” evlərlə bağlı sensasiyalı iddialar



*Azərbaycanda on minlərlə ailə qanunsuz evlərin sənədləşdirilməsini gözlədiyi halda, Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) sədri Zaur Mikayılov gözlənilməz açıqlama ilə çıxış edib. O, sənədsiz evlərə qaz, su, işıq verilməyəcəyini anons edib. Qurum rəhbəri bildirib ki, “2024-cü ildə Nazirlər Kabinetinin...*

Səh.5

14_27 IYUI-QARA.qxd 4/16/2026 9:29 PM Page 2



# "Məhkəməyə verib 50 min təzminat tələb edəcəyəm" - Elza Seyidcahan



***"Başa düşürəm ki, insanlar bunu sevdiklərindən edirlər. Lakin belə olanda mahnı dəyişilə bilər. Mahnının notu dəyişilməməlidir. Hətta tamaşalarda belə bunu edirlər. Belə olmaz, qadağandır. Süni intellektə əmr verəndə desinlər ki, notu dəyişmə".***

"Unikal" xəbər verir ki, bu sözləri Əməkdar artist Elza Seyidcahan "Qonaqcanlı" verilişində deyib. O, süni intellektlə mahnılarını dəyişənləri gələcəkdə məhkəməyə verəcəyini və onlardan 50 min manat təzminat tələb edəcəyini bildirib: "Mənə dedilər ki, müəllif hüququ üçün məhkəməyə müraciət edin. Mən razılaşmadım. Xahiş edirəm, diqqətli olun. Özünüzə nə istəyirsiniz, süni intellektlə yazın, amma mahnılarımızı dəyişdirməyin. Bu mənim bəyənməyimlə bağlı deyil, qanundur. Bəstəkar notu yazıb. Hüquqlar pozulur, olmaz, qadağandır. Kim edəcəksə, başı ağrıyacaq, məhkəmədə cavab verəcək, ən azı 50 min manat təzminat ödəməli olacaq. Özləri bilərlər. Nəinki mənim, bütün bəstəkarların mahnılarını süni intellektlə dəyişməyin. Özünüz üçün nəsə etmək istəyirsinizsə, edin.

Hər yerdə belə mahnılardan istifadə edirlər, sonra da özlərini "bəstəkar" adlandırırlar. Ona görə indiki ailələr də sünidir, evlənirlər, boşanırlar. O qədər bəstəkarlarımızın əsərləri var ki, bundan sonra belə mahnılar yazılmasa belə ehtiyac yoxdur. Yazırsansa, yaxşı yaz. Yaza bilmirsənsə, get hansısa bəstəkarın mahnısını götür, aranjiman et, oxu. Gündə, ayda bir mahnı çıxarmaqla nə demək istəyirsiniz? Qorxularından hər ay yeni mahnı çıxarırlar. Bəstəkarlarımız unudulub gedir". (axşam.az)

# Naila İslamzadə: "O sözlər mənə aid deyil"



***Azərbaycanın tanınmış aparıcısı, Əməkdar artist Nailə İslamzadə sosial şəbəkədə diqqətçəkən açıqlama ilə çıxış edib.***

O, uzun illər efirdə fəaliyyət göstərməsinin onun üçün yalnız peşə deyil, həm də tamaşaçıya hörmət və sözə məsuliyyət olduğunu vurğulayıb. Aparıcı bildirib ki, karyerası boyunca heç vaxt reytinq xatirinə prinsiplərindən imtina etməyib və ucuz sensasiyalara üz tutmayıb.

Nailə İslamzadə son müsahibələrindən birində fikirlərinin təhrif olunduğunu qeyd edərək buna etirazını bildirib. Onun sözlərinə görə, səsləndirdiyi fikirlərin düzgün təqdim olunmaması həm mətni, həm də şəxsiyyətini yanlış şəkildə əks etdirir. Aparıcı jurnalistikanın əsas prinsiplərindən birinin müsahibi olduğu kimi təqdim etmək olduğunu xatırladaraq, bəzi hallarda bu qaydaya əməl edilmədiyini deyib. O, oxucu diqqəti naminə həqiqətin dəyişdirilməsinin yolverilməz olduğunu vurğulayıb.

Sonda sənətçi açıq şəkildə bəyan edib ki, əgər onun sözlərinə və mövqeyinə hörmət göstərilməyəcəksə, bundan sonra heç bir media qurumuna müsahibə verməyəcək.



# "Biz gecə adamıyıq" - Türkan Vəlizadə

***Müğənni Türkan Vəlizadə açıqlaması ilə diqqət çəkib.***

Milli.Az xəbər verir ki, o, həyat tərzi ilə bağlı səmimi etirafı ilə maraq doğurub. Sənətçi bildirib ki, işlərinin xüsusiyyətinə görə gecə rejimində yaşayırlar:"Biz gecə adamıyıq. Çünki işimizlə əlaqəli çox gec evə gəlirik. Çox gec qidalanıb, çox gec yatırıq. Mən şəxsən yuxudan çox gec dururam".

Müğənninin bu sözləri sosial şəbəkələrdə müzakirələrə səbəb olub. Bəzi izləyicilər sənətçilərin iş qrafikinin fərqli olduğunu anlayışla qarşılasa da, digərləri bu həyat tərzinin sağlamlıq baxımından düzgün olmadığını qeyd edib.

# "Müəllim indi bunu etsə, məsuliyyətə cəlb olunar"

***"Cavanlar dəyişiblər, bir söz deyən kimi inciyirlər. Küsürlər, qapını çırpırlar. Məktəbə, teatra gəlmisinizsə, müəllim sizə söz deyirsə, bu sizin yaxşılığınız üçündür. Burada inciməli bir şey yoxdur".***



"Unikal" xəbər verir ki, bu sözləri Əməkdar artist Ədalət Şükürov "Gün ortası" verilişində deyib. O, daha sonra müəllimlərin əvvəlki dövrlərdə şagirdlərə yanaşmasından da bəhs edib: "Yada salaq ki, bizim müəllimlərimiz necə olub. Deyirdilər ki, uzaqdan müəllim gəlir, biz də özümüzü yığışdırırdıq. Daha sonra dərsdə elə şeylər edirdi ki, müəllim bunu indi tətbiq etsə, məsuliyyətə cəlb olunarlar. Xətkeşlə əlimizin üstündən vururdular. Məktəbi bitirəndən sonra isə gəlib deyirdik ki, çox sağ olun, bizi az vurmusunuz".

# Vüsalənin səhhətində problem yarandı

***Aparıcı Vüsalə Əlizadə səhhəti ilə bağlı narahatlıq yaşadığını açıqlayıb.***

Milli.Az-ın məlumatına görə, o, sosial şəbəkədə paylaşdığı videoda qəfil özünü pis hiss etdiyini bildirib. Aparıcının sözlərinə görə, təzyiqinin yüksəlməsi səbəbindən planlaşdırılan canlı yayımda iştirak edə bilməyib.

Vüsalə Əlizadə daha sonra vəziyyətinin stabilləşdiyini və artıq efirə geri döndüyünü də qeyd edib.

Xatırladaq ki, aparıcı daha əvvəl iki dəfə böyrək transplantasiyası əməliyyatı keçirib.

14_27 IYUI-QARA.qxd 4/16/2026 9:29 PM Page 3





# Ərzaq məhsulları nə qədər bahalaşıb? - Deputat açıqladı

***”Rəsmi statistikaya əsasən, bu ilin ilk rübündə istehlak bazarında 5.7 faiz qiymət artımı qeydə alınıb. Qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə isə daha yüksək infilyasiya müşahidə olunub: 6,8 faiz”.***

”Unikal” xəbər verir ki, bunu iqtisadçı deputat Vüqar Bayramov deyib. O bildirib ki, 2026-cı ilin mart ayında qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri əvvəlki ilin müvafiq ayına nisbətən 6,5 faiz artıb.

”Ötən ay qida məhsullarının qiymət artımlarının strukturuna diqqət yetirəndə daha çox infilyasiyanın meyvə və tərəvəzlərdə qeydə alındığı görünür. Belə ki, meyvələrdə 3.6, tərəvəzlərdə isə 3.2 faiz qiymət artımları müşahidə olunub. Bütövlükdə, mart ayında uzun düyü, çörək, toyuq əti, təzə balıq, süd, pendir, süfrə marqarini, günəbaxan və qarğıdalı yağları, limon, portağal, naringi, banan, alma, armud, kivi, qoz, fındıq, xiyar, pomidor, şirin bibər, balqabaq, yerkökü, kartof bahalaşıb”.

Deputat bildirib ki, meyvə və tərəvəzin qiymətində daha çox artımların qeydə alınması bir sıra məhsullar üzrə idxalın payının çox olması ilə bağlıdır: ”İran müharibəsi mart ayında idxal infilyasiyasını daha da aktivləşdirib. Dünya bazarında müşahidə edilən qiymət artımları fonunda yerli kənd təsərrüfatı məhsullarının istehsalının genişləndirilməsi daha da prioritetləşməkdədir. Son qlobal və regional geosiyasi gərginliklər bir daha təsdiq edir ki, qiymət artımlarının qarşısının alınması üçün əsas yol yerli istehsaldır. Bununla idxal infilyasiyasının təsirlərini minimumlaşdırmaq və istehlak bazarında qiymət optimallığını qorumaq olar”.

# “Teleradio”ya yeni rəhbər təyin edildi



***“Radio-Televiziya Yayımı və Peyk Kommunikasiyası” MMC-nin (Teleradio) rəhbəri dəyişib.***

”Unikal” xəbər verir ki, qurumda baş direktorunun müavini və baş direktor vəzifələrini müvəqqəti icra edən Teymur Əsgərzadə vəzifəsindən azad edilib.

Onun yerinə bu vəzifə Əlibaba Əliyevə həvalə olunub.

Qeyd edək ki, Ə.Əliyev eyni zamanda, Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqinin (AZCON) Kommunikasiya və ictimaiyyətlə əlaqələr departamentinin direktorudur.

T.Əsgərzadə isə bu vəzifəyə ötən ilin yanvar ayında təyin edilmişdi.

# Bahalaşmanın yeni dalğası gözlənilir - İnhisarçılarla nə etməli?

## Aidiyyatı qurumların iri idxalçılar üzərində nəzarəti gücləndirməsinə ciddi ehtiyac var



***Bu günlərdə Azərbaycan Mərkəzi Bankı (AMB) qarşıdakı dövr üçün inflyasiyanın yüksələ biləcəyini anons etdi. Ölkənin baş bankından bildirildi ki, “baza ssenariyə əsasən, 2026-cı ilin və 2027-ci ilin sonuna illik inflyasiyanın hədəf daxilində olacağı proqnozu dəyişməz qalır. Lakin son meyllərin təhlili 2026-cı ilə inflyasiya proqnozunun artma istiqamətində dəyişdirilməsi ehtimalının olduğunu göstərir”.***

AMB-nin açıqlamasından belə aydın olurdu ki, xüsusilə ABŞ-nin İrana hücumu fonunda regionda gərginliyin kəskin fazaya keçməsi qlobal əmtəə-maliyyə bazarlarında qiymət və indeks dəyişkənliyini yüksəltməkdədir. “Bu şəraitdə əsas xarici risk idxal qiymətlərinin daxili inflyasiyaya ötürülməsi ilə bağlıdır. Belə ki, qlobal neft və qazın təchizat zəncirlərində pozuntuların yaranması, enerji məhsullarının qiymətinin artımı və logistika xərclərinin yüksəlməsi ticarət tərəfdaşlarında inflyasiyanın artımına səbəb ola bilər. İdxal qiymətlərinin daxili inflyasiyaya ötürülməsi riski ticarət tərəfdaşlarında inflyasiya prosesləri ilə yanaşı, nominal effektiv məzənnənin dinamikasından da asılı olacaq. Daxili risk faktorları arasında təklif-xərc amilləri mühüm olaraq qalır”, - deyə AMB bəyan edib.

Daha anlaşıqlı dildə desək, ABŞ-İran müharibəsi ilə birgə enerji daşıyıcılarının qiymətinin artması, eyni zamanda, münaqişə səbəbindən risklərin formalaşması logistik xərcləri artırır. Risklərin sığortalanmasının daha yuxarı qiymətlərə başa gəlməsi, ən əsası isə neftin qiymətinin kəskin artması birmənalı şəkildə inflyasiyanı gücləndirən əsas amildir. Bu da Azərbaycan kimi idxaldan asılılığı yüksək olan bir ölkə üçün bahalaşma ehtimalını artırır.

Bu yaxınlarda “Azpolitika” saytının yazdığı kimi, qiymət artımı “demək olar, bütün sahələrdə mövcuddur və onun sürəti əhalini gəlirlərinin, minimum və orta əmək haqlarının, pensiya və müavinətlərin artım sürətini xeyli üstələyir. Bahalaşma bütünlükdə dünya üzrə müşahidə edilən tendensiyadır. Lakin iqtisadiyyatında texnoloji, elmi yenilikləri, innovasiyaları mənimsəmək və tətbiq etməklə istehsal sahələri, turizm də daxil olmaqla xarici investisiyaları cəlb etmək üçün müvafiq mühit yaratmaq əvəzinə resurs ölkəsi olaraq qalan Azərbaycan kimi məmləkətlər bu proseslərə qarşı daha həssas və hazırlıqsızdır”.

Lakin indi bizim diqqət çəkmək istədiyimiz daha bir xüsus var. Söhbət ölkəmizdə bahalaşmanı qaçılmaz edən ciddi və subyektiv bir məqamdan gedir. İş orasındadır ki, idxalda monopolizmin mövcudluğu uzun müddətdir Azərbaycanda qiymətlərin yüksək olmasına təsir edən başlıca amillər arasındadır. Müşahidələr göstərir ki, son 2-3 ildə əksər məhsulların qiymətində ən azı 2-3 dəfə artım var. Üstəlik, bu bahalaşma yalnız ərzaqların, qidaların deyil, təmizlik və gigiyena vasitələrindən tutmuş dərmanlaradək müxtəlif məhsulların qiymətində müşahidə olunur. Daha qəribəsi isə odur ki, dünya bazarlarında ucuzluq müşahidə edilərkən belə bizdə qiymət artımı davam edir. Üstəlik, dünyada qiymətlər artarkən Azərbaycanda da təbii olaraq bahalaşma baş verdiyi halda qlobal bazarlarda qiymətlər ucuzlaşarkən eyni hala yerli bazarda rast gəlmirik. İllərdir istər media, istərsə də müstəqil ekspertlər bu anormallığa aydınlıq gətirilməsini istəsələr də, sözügedən təzadın səbəbi rəsmi qurumlar tərəfindən açıqlanmır.

Əslində isə səbəbi uzaqda axtarmaq lazım deyil. Nə qədər ki, idxal böyük ölçüdə bir neçə iri oyunçunun - monopolistin nəzarətində olacaq, o vaxtadək də qiymətləri dünya bazarlarından çox bu oyunçular elə öz aralarında müəyyənləşdirməyə davam edəcəklər.

Uzağa getməyək: 2026-cı ilin fevral ayında istehlak qiymətləri 2025-ci ilin fevral ayına nisbətən 5,7 faiz, o cümlədən qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 6,8 faiz, qeyri-qida məhsulları üzrə 3,7 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 5,7 faiz artıb. Bu barədə Dövlət Statistika Komitəsinin bir müddət əvvəlki hesabatında bildirilib.

Məlum olub ki, 2025-ci ilin yanvar-fevral ayları ilə müqayisədə orta illik qiymət artımı 5,7 faiz, son bir ayda isə 0,6 faiz təşkil edib.

2026-cı ilin fevral ayında qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri əvvəlki aya nisbətən 1,1 faiz, yanvar-fevral aylarında isə əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,0 faiz artıb.

Hətta rəsmi rəqəmlər belə Azərbaycanda həyatın getdikcə bahalaşdığını açıq ortaya qoyur. Üstəlik, yuxarıdakı rəqəmlər gözlənilən bahalaşmaya əsas səbəb kimi göstərilən İran-ABŞ müharibəsinin hələ başlamadığı günlərə aiddir. Onu da unutmayaq ki, rəsmi statistika ilə pərakəndə satış şəbəkələrindəki və bazarlardakı qiymətlər arasında ciddi fərq var. Belədə 5.7 faizlik bahalaşma inandırıcı görünmür. Lakin hətta həmin rəqəmi real qəbul etsək belə, aydın görünür ki, Azərbaycanda qiymət artımı az qala geri dönməz xarakter alıb.

Bu vəziyyətdə ABŞ-İran müharibəsi səbəbilə qlobal bazarda onsuz da qaçılmaz olan bahalaşmanın bizim “yerli və milli” inhisarçılarımız üçün yeni fürsətə çevrilməsini proqnozlaşdırmaq çətin deyil. İllərin təcrübəsi bizə bunu əminliklə söyləməyə imkan verir. Yəni idxalçı monopolistlərimizin, necə deyərlər, qiymətləri “birinin üstünə beş də qoyub” yüksəltməyəcəyinə təminat yoxdur. Odur ki, aidiyyatı qurumların iri, aparıcı idxalçılar üzərində nəzarəti gücləndirməsinə, rəqabət qanunvericiliyinin bütün tələblərinin yerinə yetirilməsini effektiv şəkildə təmin etməsinə əşhədü-ehtiyac var.

Bizdən söyləmək, son söz məsul şəxslərindir...

***Sənan Mirzə***

# İranın dəniz blokadası müharibənin taleyini müəyyən edə bilər - TƏHLİL

***Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp sərt hərbi müharibədən yan keçərək, İran gəmiləri və limanlarına dəniz blokadası ilə iqtisadi müharibəyə yönəlib. Bu, ABŞ və İsrailin yeni hücumu olmadan müharibəyə son qoymaq cəhdidir.***



Trampın yeni İran blokadası ilə bağlı ən böyük sual, uğursuz olarsa nə baş verəcəyi deyil, işə yarayıb-yaramayacağıdır.

Sözügedən dəniz blokadasının məntiqi budur ki, əgər İran öz neftini ixrac edə və həyati əhəmiyyətli malları idxal edə bilməsə, o qədər dağıdıcı maliyyə və insani nəticələrlə üzləşəcək ki, müharibəni dayandırmaq üçün Amerikanın şərtlərini qəbul etməkdən başqa çarəsi qalmayacaq.

Bu, ağlabatan bir seçim ola bilər. Sanksiyalardan onsuz da ciddi şəkildə zərər görən iqtisadiyyat tez bir zamanda ciddi qida çatışmazlığına, hiperinflyasiyaya və bank böhranına çevrilə bilər. Tramp qətiyyətli dəniz manevrləri ilə İranın qlobal iqtisadiyyatı boğmaq cəhdini Hörmüz boğazını bloklamaqla kompensasiya etməyə çalışır. İddia edilən bu dəniz blokadası indiyə qədər məqsədlərinə çata bilməyib. Belə ki, İran limanlarına gedən İran və xarici gəmilər boğazdan keçib.

Lakin Amerika rəsmiləri və digərləri blokadanın İranı diz çökdürə biləcəyinə inanırlar. Bu, ABŞ-ni Yaxın Şərqdə yoldan çıxaran bir fərziyyəyə əsaslanır.

Bu strategiya Vaşinqtonun ağlabatan hesab etdiyi şəkildə İranın təzyiqinə cavab verəcəyini güman edir. Lakin yaxın tarix göstərir ki, ABŞ-nin düşmənləri - məsələn, İraq, Əfqanıstan, Rusiya və Liviya - çox vaxt öz milli maraqlarına dair Qərb hesablamalarına uyğun hərəkət etmirlər.

Ümid edilir ki, İran liderləri blokadanın ağır nəticələrini azaltmaq üçün güzəştə gedəcəklər. Plan həmçinin iqtisadi şəraitin pisləşməsinin yeni daxili siyasi müxalifət yarada biləcəyi və rejimə əlavə təzyiq göstərə biləcəyinə işarə edir. Uzunmüddətli perspektivdə bu, İran liderlərinin ABŞ və İsrailin amansız bombardmanlarından sonra iqtisadi artım yaratmaq üçün ehtiyacını artıracaq.

Lakin İran liderlərinin məsələyə bu prizmadan baxacağı fikri reallaşmaya bilər.

İranın inqilabi hakimiyyəti əvvəllər də təzyiqlərə dözmək üçün yüksək qabiliyyətə malik olduqlarını göstərib. Müharibə zamanı bir çox yüksək vəzifəli liderlərinin öldürülməsinə baxmayaraq, İran siyasi sisteminin hələ də yaşaması onlarda artıq xarici təzyiqlərə qarşı immunitet yarandığını nümayiş etdirib.

Tramp ABŞ-İsrail hücumunun müharibəni tez bir zamanda bitirəcəyinə inanırdı. Lakin İranın Hörmüz boğazını bağlaması müharibənin taleyini dəyişdi. Buna görə də, Amerika blokadasının nəticəsi zamandan asılı ola bilər.

ABŞ-nin blokadası İrana təzyiqi artırmasa və davranışı dəyişdirməsə, Trampın yeni yanaşması daha bir siyasi tələyə çevrilə bilər. Bu, Respublikaçılar Partiyasının ara seçki ümidlərini onsuz da təhdid edən müharibənin nəticələrini daha da artıra bilər.

Lakin blokada İran iqtisadiyyatını tez bir zamanda gərginləşdirə bilər.

ABŞ Hərbi Dəniz Qüvvələrinin regionda kifayət qədər aktivləri var və beynəlxalq blokadaları tətbiq etməkdə uzun təcrübəyə malikdir. Onlar keçmiş Yuqoslaviyada, Haitidə və ən son olaraq Prezident Nikolas Maduronun qaçırılmasından əvvəl Venesuelada sanksiya tətbiq edilmiş tankerlərə qarşı bunu tətbiq ediblər.

Son günlərdə Vaşinqtonda geniş şəkildə istinad edilən (müharibəyönümlü) Demokratiyaların Müdafiəsi Fondunun təhlili, Hörmüz boğazından kənarda ABŞ gəmiləri tərəfindən saxlanılan, təyyarələr və qoşunlar tərəfindən dəstəklənən blokadanın təsirli ola biləcəyini iddia edir.

Təhlildə iddia edilir ki, blokada İran iqtisadiyyatına tez bir zamanda zərər verə bilər, ticarətinin böyük hissəsini kəsə, neft ixracını dayandıra və bir neçə gün ərzində inflyasiyaya və valyuta təzyiqinə səbəb ola bilər. İran belə bir plana xüsusilə həssasdır, çünki illik 109,7 milyard dollarlıq ticarətinin 90 faizindən çoxu bu boğazdan keçir və iranlılar neft istehsalını həftələr ərzində dayandırmaq məcburiyyətində qala bilərlər, çünki məhsulu dənizə göndərə bilməsələr, saxlayacaq yerləri olmayacaq.

Beləliklə, bu planın İranın seçimlərini hərbi hava hücumunun edə bilməyəcəyi şəkildə məhdudlaşdırması mümkündür.

Blokada İrana yeni strateji tapmaca təqdim edir. Gərginliyin artması nəticəsində variantlar isə təhlükəlidir. Blokada müharibənin yenidən başlamasına və ABŞ və İsraillə atəşkəs rejiminin pozulmasına səbəb ola bilər. İran İnqilab Keşikçiləri limanlarının blokadasına ABŞ-nin Fars körfəzi müttəfiqlərinə hücumları yenidən başlatmaqla cavab verə bilər. Başqa bir seçim isə Yəmənin Ənsarullah qüvvələrinin Qırmızı dənizdən alternativ neft qaçaqmalçılığı yolunu bağlamasıdır. Belə bir addım qlobal iqtisadiyyata sarsıdıcı zərbə olardı və şübhəsiz ki, Trampa siyasi təzyiqi artırar, potensial olaraq müharibəni nəzarətdən çıxarardı.

Blokada ABŞnin özü üçün də təhlükəlidir. Əməliyyatın gizli məqsədlərindən biri Çin və Hindistan kimi İran neftinin xarici alıcılarına təzyiq göstərmək və Tehranı danışıqlar masasına qaytarmağa çalışmaqdır. Lakin Amerika qüvvələri İrana gedən Çin gəmisini ələ keçirsələr, Trampın Çin prezidenti Si Cinpinlə Pekində çoxdan gözlənilən görüşü diplomatik insidentə səbəb ola bilər.

Ağ Ev ötən həftə Pakistanda keçirilən ilk danışıqların uğursuzluğundan sonra blokadanın İranla yeni danışıqlar raunduna səbəb ola biləcəyinə nikbin yanaşır. Pakistan XİN isə tərəflərin ikinci raund danışıqlarına hazır olduqlarını açıqlayıb.

Ötən həftə sonu Pakistanda ABŞ və İranın mövqelərinin barışmaz olduğu üzə çıxdı. Vaşinqton İranın nüvə bombası əldə etməsinin qarşısını almaq, raket tutumunu məhdudlaşdırmaq və "Hizbullah" və HƏMAS kimi "proksi qruplara" dəstəyini dayandırmaq istəyir. İran da öz növbəsində müharibə təzminatı istəyir və raket ehtiyatını və ən azından uranı zənginləşdirmək üçün nəzəri hüququnu qorumaq üçün mübarizə aparacaq.

Lakin mümkün razılaşmanın konturları müharibə dumanında görünür. ABŞ rəsmisi CNN-ə bildirib ki, Vaşinqton uranın zənginləşdirilməsini 20 il müddətinə dayandıracaq razılaşma təklif edib. İran isə beş illik müddət təklif edir. Bəlkə də ortaq bir yol tapılacaq.

Uğurlu sülh hər iki tərəfin maraq və məqsədlərini qarşılamalıdır. Bu, nüvə fizikası və uranın zənginləşdirilməsi elmi kimi mürəkkəb məsələlər üzrə intensiv müzakirələr də daxil olmaqla, aylar çəkəcək bir prosesdir.

***Ağarza Elçinoğlu***



# İTV-nin baş direktoru vəzifəsinə sənəd qəbulu elan ediləcək

***"İctimai Televiziya və Radio Yayımları Şirkətinin hazırki baş direktoru İctimai Televiziya və Radio Yayımları Şirkətinin Yayım Şurasının 24 may 2022-ci il tarixli səsverməsi və yekun qərarı ilə 4 il müddətinə seçilib. Beləliklə, hazırki baş direktorun səlahiyyət müddəti hələ başa çatmayıb".***

Bu barədə APA-nın sorğusuna cavab olaraq Audiovizual Şuradan məlumat verilib.

"Bundan əlavə qeyd olunmalıdır ki, İctimai Televiziya və Radio Yayımları Şirkətinin Yayım Şurasının iclasının keçirilməsi, baş direktorun seçilməsi ilə bağlı prosedur məsələlər "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada həyata keçirilir. İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktorunun səlahiyyət müddətinin başa çatması ilə əlaqədar olaraq müvafiq vəzifəyə namizədlərin müəyyənləşdirilməsi üçün Audiovizual Şura tərəfindən sənəd qəbulu prosesinin aparılması və bu məqsədlə elan verilməsi nəzərdə tutulur. Elan Audiovizual Şuranın rəsmi veb-saytında və mediada dərc olunacaq", - məlumatda bildirilib.

Qeyd edək ki, İctimai Televiziya və Radio Yayımları Şirkətinə baş direktor seçkisi "İctimai televiziya və radio yayımı haqqında" qanuna əsasən bu ilin may ayının sonunda keçiriləcək.

Xatırladaq ki, İTV-nin baş direktoru Balakişi Qasımovdur.

# Ölkəmizdə internetin sürəti neçə faiz artıb?

***Genişzolaqlı və mobil şəbəkə keyfiyyətinin qiymətləndirilməsi üzrə qlobal şirkət olan "Ookla" mart ayı üzrə "Speedtest Global Index" hesabatını təqdim edib.***



"Unikal" xəbər verir ki, yeni hesabata görə, Azərbaycanda sabit genişzolaqlı internetin median sürəti 91,37 Mb/s, mobil internetin median sürəti isə 95,43 Mb/s olub.

Fevral ayı ilə müqayisədə sabit genişzolaqlı internetin həcmi 0,10 Mb/s və ya 0,11%, mobil internetin sürəti isə 0,48 Mb/s və ya 0,51% yüksəlib.

İllik müqayisədə sabit genişzolaqlı internetin sürəti 17,75 Mb/s (24,11%), mobil internetin sürəti isə 20,81 Mb/s (27,89%) artıb.

Bu artım ölkədə rəqəmsal transformasiyanın, elektron xidmətlərə tələbatın, distant iş və təhsil imkanlarının genişlənməsinin göstəricisidir və Azərbaycanın qlobal internet reytinqlərində mövqeyinin yüksəldiyini təsdiqləyir.

14_27 IYUI-QARA.qxd 4/16/2026 9:30 PM Page 5



# İlham Əliyev Türkiyəyə getdi



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın dəvəti ilə 5-ci Antalya Diplomatiya Forumunda iştirak etmək üçün aprelin 16-da Türkiyəyə işgüzar səfərə gəlib.***

"Unikal" xəbər verir ki, Antalya Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və birinci xanım Mehriban Əliyevanı Antalya şəhərinin valisi Hulusi Şahin və digər rəsmi şəxslər qarşıladılar.

# İlham Əliyev Ərdoğana başsağlığı verdi

***Prezident İlham Əliyev Kahramanmaraşda baş vermiş silahlı insidentlə bağlı türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğana başsağlığı məktubu ünvanlayıb.***



"Unikal" xəbər verir ki, başsağlığı məktubunda deyilir:

Hörmətli cənab Prezident.

Əziz Qardaşım.

Kahramanmaraşda yerləşən məktəbə silahlı hücum nəticəsində əksəriyyəti uşaq olmaqla çox sayda insanın həlak olması və yaralanması xəbərini dərin sarsıntı və kədər hissi ilə qarşıladıq.

Biz bu dəhşətli hadisədən son dərəcə hiddətlənir, uşaqlara qarşı yönəlmiş bu qəddarlıq əməlini qətiyyətlə pisləyirik.

Bu ağır anlarda dərdinizi bölüşür, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Türkiyə xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, səbir diləyir, yaralananların tezliklə sağalmasını arzulayıram.

Allah rəhmət eləsin!

# Baş nazir qərar imzaladı

***Azərbaycan Respublikasının Kosmik Agentliyinin (Azərkosmos) nizamnamə kapitalı artırılıb.***



"Unikal" xəbər verir ki, bununla bağlı Baş nazir Əli Əsədov müvafiq qərar imzalayıb.

Qərar əsasən, "Azərkosmos"un nizamnamə kapitalı 473 605 880 manatdan 567 605 880 manata çatdırılıb.

Bununla da Kosmik Agentliyin nizamnamə kapitalı 94 min manat artırılıb.

# "Rusiya və Azərbaycan qanunverici orqanları arasında çox səmərəli əməkdaşlıq qurulub"

***Aprelin 16-da Milli Məclisin sədri Sahibə Qafarova İstanbulda keçirilən Parlamentlərarası İttifaqın (PAİ) 152-ci Assambleyası çərçivəsində Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşüb.***



Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən "Unikal"a bildirilib ki, Sahibə Qafarova PAİ və Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi (QHPŞ) kimi beynəlxalq platformaların əhəmiyyətini vurğulayıb.

Milli Məclisin sədri iki ölkə arasında əlaqələrin daha da inkişaf etdirilməsi üçün geniş potensialın mövcud olduğunu diqqətə çatdırıb, parlamentlərarası əlaqələrin rolundan danışıb. O bildirib ki, bu gün qanunverici orqanlarımız arasında çox səmərəli əməkdaşlıq qurulub və parlamentarilərimiz həm ikitərəfli tədbirlərdə fəal iştirak edirlər, həm də beynəlxalq təşkilatlar çərçivəsində müsbət qarşılıqlı fəaliyyət göstərirlər. Eyni zamanda, MDB PA çərçivəsində fəaliyyət də mühüm istiqamətdir. Burada bir çox mühüm məsələlərlə bağlı birgə əməkdaşlıq həyata keçirilir. Azərbaycan Parlamentinin sədri diqqətə çatdırıb ki, Milli Məclis ilə Federal Məclisin Parlamentlərarası Əməkdaşlıq Komissiyası da parlamentlərarası əlaqələrimizdə mühüm rol oynayır.

Dünən Rusiya və Azərbaycan xarici işlər nazirliklərinin Azərbaycan təyyarəsinin 2024-cü il dekabrın 25-də Aktau yaxınlığında qəzaya uğraması barədə birgə bəyanatına toxunan Valentina Matviyenko baş vermiş bədbəxt hadisənin nəticələrinin tənzimlənməsinin əhəmiyyətini qeyd edib və bir daha başsağlığını çatdırıb. Federal Şuranın sədri İrandakı müharibə fonunda Rusiya vətəndaşlarının İrandan təhlükəsiz şəkildə çıxarılması üçün Azərbaycanın göstərdiyi yardıma görə təşəkkürünü bildirib.

Prezident İlham Əliyevlə və Birinci vitse-prezident Mehriban Əliyeva ilə keçirdiyi görüşləri məmnunluqla xatırlayan Rusiya Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko bu görüşlər barədə təəssüratlarını bölüşüb. Ölkələrimiz arasında münasibətlərin səviyyəsindən razılıq ifadə olunub, qarşılıqlı əlaqələrin inkişafında iki ölkənin dövlət başçılarının mühüm rolu qeyd edilib.

Söhbət zamanı Milli Məclisin sədri Sahibə Qafarova iki ölkənin xarici işlər nazirliklərinin sonuncu bəyanatının əhəmiyyətini vurğulayıb.

Görüşdə xalqlarımız arasında mədəni, humanitar əlaqələrə də toxunulub, qarşılıqlı əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyindən danışılıb.

Söhbətdə qarşılıqlı maraq doğuran digər mövzularda da fikir mübadiləsi aparılıb.

# Sahibə Qafarova İstanbulda Simonyanla görüşdü

***Azərbaycan Milli Məclisinin spikeri Sahibə Qafarova ilə Ermənistan Parlamentinin sədri Alen Simonyan arasında qısa görüş olub.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan mətbuatı yazıb.

Sahibə Qafarova və Alen Simonyan Parlamentlərarası İttifaqın (PAİ) 152-ci Assambleyasının plenar iclası çərçivəsində qısa söhbət ediblər.

***Ağarza Elçinoğlu***

# Ermənistandan Azərbaycana 960 dollarlıq nə idxal olunub? - Rəsmi açıqlama

***Dövlət Gömrük Komitəsi Azərbaycanın ötən ay Ermənistandan 960 ABŞ dolları dəyərində mal idxal etməsini şərh edib.***

Komitədən "Unikal"a bildirilib ki, həmin mal əslində Niderlanddan gətirilmiş qızılgül olub.

"Xarici ticarətin gömrük statistikasının nəşr olunması Qaydası"nın 3.3-cü bəndinə əsasən idxalda malın mənşə ölkəsi tərəfdaş ölkə hesab edildiyindən sözügedən qızıl güllər xarici ticarətin gömrük statistikasında Ermənistandan idxal edilən mallar kimi öz əksini tapıb.

# "Euronews" Azərbaycanda keçiriləcək WUF13 barədə reportaj hazırladı

***"Euronews" gələn ay Azərbaycanda keçiriləcək Ümumdünya Şəhərsalma Forumunun 13-cü iclası (WUF13) barədə reportaj hazırlayıb.***

"Unikal" xəbər verir ki, reportajda dünyada bir milyarddan çox insanın qeyri-adekvat bölgələrdə yaşadığı və WUF13-ün bu problemin həlli istiqamətində mühüm platforma olduğu diqqətə çatdırılıb.

Reportajda qeyd olunur ki, WUF13 ölkələr üçün təcrübə mübadiləsi və şəhər inkişafı sahəsində ideyaların müzakirə edilməsi üçün mühüm platformadır.

"Azərbaycan ev sahibi kimi məskunlaşma sahəsində, xüsusilə postmünaqişə dövründə yenidənqurma məsələləri ilə bağlı öz təcrübələrini bölüşəcək",- reportajda deyilir.

Eyni zamanda, Azərbaycanda məskunlaşma sahəsinin yenidənqurma ilə sıx bağlı olduğu bildirilib.

Azərbaycan Prezidentinin Ağdam, Füzuli və Xocavənd rayonları üzrə xüsusi nümayəndəsi Emin Hüseynov "Euronews"a müsahibəsində məqsədin sadəcə ev tikmək yox, həm də əhali üçün doğmalıq atmosferinin yaradılması olduğunu deyib.

"Doğmalıq hissi insanları yaşamağa, ictimaiyyətə bağlayır", - o qeyd edib.

Emin Hüseynov məskunlaşma prosesində evlərin tikilməsi ilə yanaşı, iş yerlərinin açılması, sosial həyatın və iqtisadi rifahın təmin olunmasının əhəmiyyətindən danışıb.

Reportajda işğaldan azad olunmuş ərazilərə qayıdan vətəndaşların da fikirlərinə yer verilib.

Belə ki, onlar azad edilmiş ərazilərə ilk dəfə gəldiklərində evlərlə yanaşı, marketlərin, ictimai-iaşə obyektlərinin və digər həyati əhəmiyyət daşıyan infrastrukturun əlçatan olduğunu deyiblər.



Sakinlər məhv olmuş yaşıllıqların yerində yeni ağacların əkildiyini, yeni parkların salındığını və abadlıq işlərinin aparıldığını qeyd ediblər.

Reportajda Azərbaycanın Böyük Qayıdış proqramının uğurlu icrasının müxtəlif cəhətləri də vurğulanıb.

Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov hazırda Şuşada 1400 nəfərin - 377 ailənin yaşadığını deyib.

Reportajda dünyada mənzil təminatının qlobal problem olaraq qaldığı və WUF13-də müzakirələrin inklüziv siyasətlər, əlçatanlıq və davamlı şəhər inkişafına yönələcəyi diqqətə çatdırılıb.

# Naxçıvan iqtisadiyyat nazirinə yeni müavin təyin edilib

***Naxçıvan Muxtar Respublikası (MR) iqtisadiyyat nazirinə yeni müavin təyin edilib.***

Qurumun mətbuat xidmətindən "Unikal"a verilən məlumata əsasən, bu vəzifəyə Müslüm Əli oğlu Cabbarzadə təyin edilib.

Qeyd edək ki, M.Cabbarzadə bundan əvvəl muxtar respublikanın İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin rəis müavini vəzifəsində çalışıb, rəis vəzifələrini icra edib.

Baş redaktor:
**Zaur Əhməd**

Turanbank" ASC Binəqədi filialı.
H/h: AZ70TURA40050054644700110944
M/H: AZ26NABZ01350100000000027944
Kodu: 504692
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Son dəqiqə" MMC mətbəəsində çap olunmuşdur

Sifariş 252.

Tiraj:2000

# Zəngilanda Rusiya-Azərbaycan Hökumətlərarası Komissiyasının iclası keçirilib, protokol və yol xəritəsi imzalanıb

***Aprelin 16-da Zəngilan şəhərində Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq məsələləri üzrə Hökumətlərarası Dövlət Komissiyasının 24-cü iclası keçirilib.***

Hökumətlərarası Komissiyanın Azərbaycan tərəfindən sədri, Baş nazirinin müavini Şahin Mustafayev və Hökumətlərarası Komissiyanın Rusiya tərəfindən sədri, Rusiya hökumətinin sədr müavini Aleksey Overçukun sədrliyi ilə keçirilən iclasda hər iki ölkənin müvafiq dövlət strukturlarının rəhbərləri və səlahiyyətli nümayəndələri iştirak ediblər.

İclasda Komissiyanın Azərbaycan tərəfdən həmsədri Şahin Mustafayev çıxış edərək azad olunmuş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verib. Ş.Mustafayev bildirib ki, işğal dövründə tamamilə dağıdılmış infrastruktur hazırda müasir standartlara uyğun şəkildə bərpa olunur, yollar, körpülər, tunellər, inşa edilir, yaşayış və sosial obyektlər yaradılır.

Baş nazirin müavini bildirib ki, Azərbaycan Rusiya ilə münasibətdə mehriban qonşuluq, qarşılıqlı anlaşma və bərabərhüquqlu tərəfdaşlıq prinsiplərinə sadiqdir.

Qeyd olunub ki, ikitərəfli əməkdaşlığın ardıcıl və dinamik inkişafı prezidentlər İlham Əliyev və Vladimir Putin tərəfindən həyata keçirilən siyasi iradə və strateji kursla müəyyən olunur. Xüsusilə 2022-ci ildə imzalanmış müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamənin ikitərəfli münasibətlərə mühüm təkan verdiyi vurğulanıb.

Şahin Mustafayev Azərbaycan və Rusiya prezidentlərinin ötən ilin oktyabrında Düşənbədə keçirilmiş görüşünün ikitərəfli əməkdaşlıqla yeni mərhələnin əsasını qoyduğunu, mart ayında Bakıda baş tutmuş yüksəksəviyyəli təmasların isə praktik nəticələr verdiyini bildirib. O, mürəkkəb regional şəraitə baxmayaraq, əməkdaşlığın davamlı inkişaf etdiyini xüsusi qeyd edib.

O, Azərbaycanın regional sabitliyə və humanitar əməkdaşlığa verdiyi töhfələrə toxunaraq, İran ərazisindən Rusiya vətəndaşlarının təxliyəsində göstərilən operativ dəstək, eləcə də Rusiya humanitar yardımının Azərbaycan ərazisindən tranziti üçün yaradılan şərait vurğulayıb. Bildirilib ki, “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizi mövcud mürəkkəb geosiyasi şəraitdə də etibarlı və fasiləsiz fəaliyyət göstərərək öz rəqabətqabiliyyətini sübut edib.

İqtisadi məsələlərə toxunan Ş.Mustafayev qeyd edib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə Azərbaycan ərazisindən müxtəlif istiqamətlərdən, o cümlədən Rusiyadan Ermənistana yüklərin daşınması ilə bağlı məhdudiyyətlərin aradan qaldırılması regionda etimadın möhkəmləndirilməsinə və nəqliyyat-logistika əməkdaşlığının genişlənməsinə xidmət edir. Hazırda Azərbaycan ərazisindən tranzitlə Ermənistana təxminən 26 min ton yük daşınıb.

Kənd təsərrüfatı məhsulları üzrə ticarətin xüsusi əhəmiyyət daşıdığı vurğulanıb. Qeyd edilib ki, Rusiya bazarı Azərbaycan qeyri-neft ixracının əsas istiqamətlərindən biri olaraq qalır.

Şahin Mustafayev vurğulayıb ki, Azərbaycan-Rusiya münasibətlərinin əsas istiqamətlərindən biri ticarət-iqtisadi əməkdaşlıqdır. Onun sözlərinə görə, 2025-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 4,9 milyard ABŞ dollarına çatıb. Çıxışda investisiya əməkdaşlığının müsbət dinamikası xüsusi qeyd edilib. Bildirilib ki, Rusiyanın Azərbaycana yatırdığı ümumi investisiyaların həcmi 10,5 milyard ABŞ dollarını, o cümlədən qeyri-neft sektoruna 2,9 milyard dolları ötüb. İnvestisiya əməkdaşlığı müsbət dinamika nümayiş etdirir və Azərbaycanda 1400-dən çox Rusiya şirkəti fəaliyyət göstərir. Eyni zamanda, Azərbaycan investisiyalarının da Rusiya iqtisadiyyatında mövqelərinin möhkəmləndiyi, sanatoriya, sənaye və istehsal layihələrinin uğurla icra olunduğu bildirilib.

Baş nazirin müavini nəqliyyat-logistika sahəsini əməkdaşlığın prioritet istiqamətlərindən biri kimi dəyərləndirib. Xüsusilə “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafının strateji əhəmiyyəti vurğulanıb, dəhliz üzrə infrastrukturun modernləşdirilməsi və rəqəmsallaşdırmanın yükdaşımaların həcmini əhəmiyyətli dərəcədə artıracağı qeyd olunub. Bildirilib ki, 2028-ci ildən etibarən Azərbaycan ərazisindən illik daşımaların həcmi azı 5 milyon ton, sonrakı mərhələdə isə 15 milyon ton səviyyəsinə çatdırılacaq.

O, Araz vadisi iqtisadi zonasında “KamAZ” servis mərkəzinin və Qubadlının Mahruzlu kəndində Həştərxan qubernatorluğu tərəfindən uşaq bağçasının tikintisini yüksək qiymətləndirib və Rusiya tərəfinə təşəkkür edib.



Rusiya tərəfdən çıxış edən Rusiya Federasiyası Hökuməti sədrinin müavini Aleksey Overçuk Azərbaycan-Rusiya əməkdaşlığının strateji xarakter daşıdığını deyib. O, nəqliyyat-logistika, sənaye və aqrar sahələrinin əsas prioritetlər olduğunu bildirib, “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin inkişafının regional və beynəlxalq ticarət əlaqələrinin genişlənməsində mühüm rol oynadığını vurğulayıb. Overçuk Zəngilanda aparılan bərpa işlərini yüksək qiymətləndirərək, bu ərazilərin birgə layihələr üçün yeni imkanlar yaratdığını qeyd edib.

İclas zamanı tərəflər ticarət, investisiya, maliyyə, nəqliyyat, kənd təsərrüfatı, energetika, turizm və humanitar sahələr üzrə əməkdaşlığın mövcud vəziyyətini və perspektivlərini müzakirə edib, qarşılıqlı maraq doğuran məsələlər üzrə koordinasiyanın gücləndirilməsinin vacibliyini vurğulayıblar.

A.Overçuk Rusiya Federasiyası tərəfindən İran İslam Respublikasına göndərilmiş humanitar yardımın Azərbaycan ərazisindən keçərək ünvana çatdırılmasında göstərdiyi yardıma görə təşəkkürünü bildirib.

Sonda Azərbaycan-Rusiya münasibətlərinin qarşılıqlı hörmət, etimad və tərəfdaşlıq prinsipləri əsasında inkişaf etdiriləcəyi, əldə olunmuş razılaşmaların ardıcıl şəkildə icrasının davam etdiriləcəyi vurğulanıb.

İclasın yekunlarına dair Ş.Mustafayev və A.Overçuk Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın 24-cü iclasının Protokolunu imzalayıblar.

Zəngilan səfəri çərçivəsində Azərbaycan-Rusiya iqtisadi əməkdaşlıq məsələləri üzrə Dövlət Komissiyasının 24-cü iclasının iştirakçıları Zəngilan şəhərində, Ağalı kəndində olub, Ağbənd avtomobil körpüsü, Horadiz-Ağbənd dəmir yolu layihəsi, habelə sərhəd-keçid məntəqəsinin infrastrukturunun tikintisi ilə tanış olublar. Qeyd edilib ki, Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd avtomobil yolu “Şimal-Cənub” Beynəlxalq Nəqliyyat Dəhlizinin yeni qolunun əsas komponenti, Horadiz-Ağbənd dəmir yolu Zəngəzur dəhlizinin mühüm həlqəsini formalaşdıracaq(azertac).

# Prezidentdən Hikmət Babaoğlu ilə bağlı sərəncam



***Hikmət Baba oğlu Məmmədov “Şöhrət” ordeni ilə təltif edilib.***

”Unikal” xəbər verir ki, Prezident İlham Əliyev bu barədə Sərəncam imzalayıb.

Sərəncamla o mükafata Azərbaycanın ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə layiq görülüb.

Qeyd edək ki, Milli Məclisin deputatı Hikmət Babaoğlunun aprelin 17-də 60 yaşı tamam olur.

# Agentlik sədri 4 nəfərə yüksək vəzifə verdi

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Sosial Xidmətlər Agentliyində (SXA) yeni təyinatlar olub.***

”Unikal”ın əldə etdiyi məlumata görə, təyinatlarla bağlı agentliyin İdarə Heyətinin sədri Vüqar Behbudov müvafiq əmrlər imzalayıb.

Əmrlərə əsasən, Ceyhun İntiqam oğlu Əliyev Daxili nəzarət və monitorinq departamentinin müdiri, Elnur Həmidağa oğlu Əliyev isə Sosial təminat departamentinin müdiri vəzifəsinə təyin olunublar.

E.Əliyev bu təyinatadək Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş departamentinin müdiri vəzifəsində çalışıb. Onun yerinə, yeni Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş departamentinin müdiri vəzifəsinə isə buna qədər həmin departamentin müdir müavini olan İlkin Rafayıl oğlu Tahirov təyinat alıb.

Bundan başqa, Sosial Xidmətlər Agentliyinin Monitorinq və qiymətləndirmə şöbəsinin müdiri olan Cavid Ziyatxan oğlu Əhmədli agentliyin Maliyyə Departamentinin müdir müavini təyin edilib.

***Murad İbrahimli***

# Naxçıvan Qida Təhlükəsizliyi Agentliyinə sədr müavini təyin edildi



***Naxçıvan Muxtar Respublikası (MR) Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini vəzifəsinə təyinat olub.***

”Unikal” xəbər verir ki, muxtar respublikanın Baş naziri Cabbar Musayevin imzaladığı sərəncamla Bəxtiyar Məmməd oğlu İsmayılov Naxçıvan MR Qida Təhlükəsizliyi Agentliyinin sədr müavini vəzifəsinə təyin edilib.

Qeyd edək ki, B.İsmayılov əmək fəaliyyəti dövründə Şahbuz Rayon İcra Hakimiyyətində və Naxçıvan MR Ali Məclisində çalışıb. O, müxtəlif illərdə muxtar respublikanın Dövlət Statistika Komitəsinə, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinə, həmçinin Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə rəhbərlik edib.

# Milli Kitabxana tərəfindən vebinar təşkil edilib

***Milli Kitabxana tərəfindən “Azərbaycan Milli Kitabxanası: müasir istifadəçi üçün xidmətlər və imkanlar” mövzusunda vebinar təşkil edilib.***

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinə tabe kitabxanaların iştirakı ilə keçirilən vebinarın məqsədi Milli Kitabxananın müasir xidmətlərini, rəqəmsal imkanlarını və istifadəçi yönümlü yeniliklərini təqdim etmək olub. Vebinarda elektron kataloq, rəqəmsal resurslar və onlayn xidmətlər haqqında məlumat verilib, istifadəçilərin informasiya əldə etmə imkanlarının genişləndirilməsi və kitabxana ilə interaktiv əlaqənin gücləndirilməsi yolları izah olunub. Həmçinin müasir informasiya mühitinin tanıdılması üzrə effektiv metodlar müzakirə edilib və iştirakçıların sualları cavablandırılıb.

14_27 IYUI-QARA.qxd 4/16/2026 9:30 PM Page 7





## Ailə başçısını itirməyə görə sosial ödənişin verilməsi proseduruna dəyişiklik edildi

***Ailə başçısını itirməyə görə aylıq pensiya və ya müavinət alan ailənin əyani təhsil alan övladlarına bu sosial ödəniş onların 23 yaşı tamam olanadək ödənilir. Bunun üçün əgər əvvəllər onlardan oxuduqları təhsil müəssisələrindən hər il arayış təqdim etmələri tələb olunurdusa, artıq bu tələb ləğv edilib.***

Bu barədə "Unikal"a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat verilib.

"Nazirliyin tabeliyində DOST Rəqəmsal İnnovasiyalar Mərkəzi və Dövlət Sosial Müdafiə Fondunun tətbiq etdiyi yeni rəqəmsal həll nəticəsində proses tam avtomatlaşdırılıb.

Vəfat etmiş və ya həlak olmuş şəxslərin ölkə daxilində əyani təhsil alan 23 yaşadək övladlarının əyani təhsil almaları barədə məlumatlar Dövlət İmtahan Mərkəzinin "Tələbə-Məzun" informasiya bazasından e-qaydada əldə olunur. Bununla da qeyd edilən ödənişin davam etdirilməsi prosesi avtomatik təmin edilir.

Təhsil statusu hər ay avtomatik yenilənir, ödənişlərin davam etdirilməsi üçün arayış təqdim edilməsinə ehtiyac qalmır.

Bu yenilik nəticəsində əyani təhsil alan ümumilikdə 11,5 mindən çox şəxsə ailə başçısını itirməyə görə pensiya və müavinət ödənişi müddəti arayış tələb edilmədən avtomatik uzadılıb", - məlumatda qeyd edilib.

## İnterpol axtarışında olan MMC direktoru Türkiyədən Azərbaycana gətirilir

***"Ekstradisiya haqqında" 13 dekabr 1957-ci il tarixli Konvensiyanın tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasının vətəndaşı Səfərova Zinyət Məmmədrəsul qızının ekstradisiyası ilə bağlı Baş Prokurorluq tərəfindən verilmiş vəsatət Türkiyə Respublikasının səlahiyyətli orqanları tərəfindən təmin edilib.***

Baş Prokurorluqdan "Unikal"a verilən məlumata görə, Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində ibtidai istintaqı aparılan cinayət işi üzrə Məhdud Məsuliyyətli Cəmiyyətin (MMC) direktoru vəzifəsində işləyən Səfərova Zinyət Məmmədrəsul qızının digər MMC-nin 445 min manatdan artıq pul vəsaitini mənimsəməsi və həmin pul vəsaitini leqallaşdırmasına əsaslı şübhələr müəyyən edilib.

Bu səbəbdən Zinyət Səfərovanın külli miqdarda mənimsəmə və cinayət yolu ilə əldə edilmiş xeyli miqdarda əmlakı leqallaşdırma cinayət əməllərini törətməkdə təqsirləndirilməsinə dair qərar qəbul olunub və o, istintaqdan yayınaraq gizləndiyinə görə İnterpolun Azərbaycandakı Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarış elan edilib.

Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Zinyət Səfərova Türkiyənin ərazisində saxlanılıb.

Zinyət Səfərovanın ölkəmizə gətirilməsi istiqamətində Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən tədbirlər görülür.

# "Mərkəzdə torpaq sahələri həddindən artıq yüksək qiymətə satılır"

## Vüqar Oruc: "Elə ərazilər var ki, orada torpaq sahəsi tapmaq mümkün olmasa da, hesablamalarımıza görə 1 sotun dəyəri təqribən 2 milyon manat olan ərazilər var"

***Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin İdarə Heyətinin sədri Vüqar Oruc "Unikal"a müsahibə verib. O, subasma qeydə alınan ərazilərdəki evlərin qiymətinin necə dəyişəcəyindən, hazırda paytaxtın hansı ərazilərində evlərin qiymətinin bahalaşmasından, Bakının hansı ərazilərində söküntünün aparıla biləcəyindən və kirayə mənzil bazarında qiymətlərin necə dəyişəcəyindən danışıb.***

***-Vüqar müəllim, son vaxtlar intensiv yağıntılar bir sıra ərazilərdə ciddi fəsadlara səbəb olub. Əsasən, fərdi yaşayış evlərinin yerləşdiyi müxtəlif ərazilərdə həyətyanı sahələrdə subasmalar qeydə alınıb. Bu hallar həmin ərazilərdə evlərin qiymətinə necə təsir göstərəcək?***



-Bu yağışlar nəticəsində ilk növbədə psixoloji atmosfer yaranır ki, vətəndaşlar həmin ərazilərdə daşınmaz əmlak əldə etməkdən ehtiyatlanırlar. Bu da təbii ki, qiymətlərə təsir göstərir. Amma bu problemlər aradan qaldırılsa, yeni infrastruktur qurulsa və bir müddət belə davam etsə, proses əvvəlki qaydada davam edəcək və Bakı şəhərindəki daşınmaz əmlak növlərində olduğu kimi qiymətlərin artımı baş verəcək. Düşünürəm ki, bu, müvəqqəti tendensiyadır. Daşınmaz əmlak bazarının çox cüzi hissəsini özündə əks etdirir. Bütövlükdə daşınmaz əmlak bazarındakı qiymtələrə təsir göstərməyəcək. Bunun məhz həmin ərazilərdə olan torpaq sahələrinə, fərdi yaşayış evlərinə lokal təsiri olacaq. Bu da müəyyən dövrü əhatə edəcək.

***- Hazırda paytaxtda ərazilər üzrə qiymətlər necə dəyişir?***

-Premium zonalar Səbail, Yasamal, Nərimanov, Nəsimi və Xətai rayonunun bir hissəsi qeyd olunmaqla bu rayonların ərazisində olan küçələri və rezidensləri əhatə edir. Nəsimi rayonunda əsasən "Port Baku" ətrafında qiymətlərin yüksək həddi qeyd olunub. 28 May və Səməd Vurğun ərazilərində, Səbail rayonunda "İçərişəhər" və "Sahil" metrosunun, Yasamalda "Elmlər Akademiyası" metrosunun ətrafı, "Statistika dairəsi" və s. kimi yerlərdə qiymətlər yüksək həddədir. Ortalama premium zonada qiymətlər bir kvadratmetr üçün 4500-6500 manat arasında dəyişir. Köhnə tikililərdə isə bu rəqəm təqribən 3000-4500 manat arasındadır. Bu qiymətlər zaman keçdikcə artır. Mənzillər təbii ki, digər daşınmaz əmlak növlərinə nisbətən daha yüksək qiymətə təklif olunur. Mərkəzdə torpaq sahələri həddindən artıq yüksək qiymətə satılır. Elə ərazilər var ki, orada torpaq sahəsi tapmaq mümkün olmasa da, hesablamalarımıza görə 1 sotun dəyəri təqribən 2 milyon manat olan ərazilər var. Bu əsasən, Nizami küçəsi ətrafında olan yerləri, Yusif Məmmədəliyev küçəsini əhatə edir. O cümlədən, Neftçilər prospektinin mərkəzə yaxın hissəsini özündə əks etdirir. Burada xüsusilə Zərifə Əliyeva küçəsini qeyd etmək lazımdır. Torpaq sahələrinin qiyməti təqribən 1 və 1,5 milyon manat arasında dəyişir. Ən yüksək mənzil təklif qiyməti isə bir kvadratmetr üçün 17 500 manatdır. Bu, Nəsimi rayonunda yerləşən "Crescent Mall" üzərindəki yaşayış kompleksindədir. Cari ilin ilk rübündə ortalama bütün yeni tikililər 3,6, köhnə tikililər isə 2,4 faiz qiymət artımına məruz qalıb. İkinci inkişaf ərazisi isə Xətai rayonunun "Ağ Şəhər" olan ərazisinin ətrafı, Həzi Aslanov və Nərimanov rayonunun bir hissəsi, Yasamal rayonunun orta inkişaf edən massivləri, Nizami və Binəqədi rayonlarıdır. Bu ərazilərdə yeni tikililərdə qiymətlər təqribən bir kvadratmetri 2300-3700 manat, köhnə tikililərdə isə 2000-2500 manat arasında dəyişir. Son olaraq Xəzər, Qaradağ və Pirallahı rayonlarını qeyd etmək istərdim. Bu ərazilərdə qiymətlərin artım dinamikası həddən artıq aşağıdır.

***-Bakıda bir sıra ərazilərdə köhnə tikililərin söküntüsü aparılır. Növbəti mərhələdə paytaxtın hansı ərazilərində söküntü işləri aparıla bilər?***

-Söküntü prosesi paytaxtın bütün 12 rayonunun ərazisini əhatə edəcək. "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"na əsasən, söküntü olan ərazilərdə yeni binaların tikilməsi, parkların salınması gözlənilir. Yeni metro stansiyalarının və tramvay xəttinin inşası nəzərdə tutulur. Ümumilikdə bu proses 100 minə qədər binanı əhatə edəcək. Çox böyük söküntü prosesi baş verəcək və həmin söküntü prosesi təkcə yeni binaların tikilməsi ilə deyil, eyni zamanda parkların salınması, abadlıq işlərinin görülməsi, infrastrukturun daha da yüksək səviyyəyə qaldırılması ilə nəticələnəcək. Ümumi planlar var, hansının daha tez baş verəcəyini söyləmək çətindir.

***-Kirayə mənzil bazarında qiymətlər hər zaman vətəndaşların diqqətində olur. Hazırda kirayə evlərin qiymətləri necə dəyişir və paytaxtın hansı ərazilərində neçəyədir?***

-Paytaxtda işgüzarlıq səviyyəsi yüksək olan, böyük biznes mərkəzləri olan ərazilərdə kirayə qiymətləri daha yüksəkdir. Premium seqmentdə kirayə qiymətləri ortalama olaraq 2500-3500 manat arasında dəyişir. Mərkəzi Bankın hesablamalarına görə, hazırda ortalama kirayə qiyməti 1002 manatdır. Bu o demək deyil ki, ondan aşağı və ya yuxarı qiymətə kirayə mənzil yoxdur. Qeyd olunan rəqəm təqribən 250-300 min manatlıq 2 otaqlı mənzili özündə ehtiva edir. Hazırda paytaxtın mərkəz rayonlarında artım sürəti yüksəkdir. Orta tipli seqmentə aid rayonlarda kirayə qiymətləri stabil olaraq təqribən 600-800 manat arasında dəyişir. Xəzər, Pirallahı və Qaradağ rayonunda isə kirayə qiymətləri 300-450 manat arsasında dəyişir. İl boyu kirayə mənzil qiymətlərində artım gözlənilir. Bu həm də beynəlxalq proseslərlə bağlıdır. Ətrafımızda müharibələr, münaqişələr cərəyan edir. Ölkəmizə gələnlərin sayında dəyişiklik var. Həmçinin, qarşıda mövsümü bahalaşma dövrü var. Bu, 50 min abituriyentin tələbə adı qazanması ilə bağlıdır. Bu, iyul ayından başlayaraq kirayə mənzil bazarında qiymətə ciddi təsir göstərəcək. Düşünürük ki, bu il kirayə seqmenti digər satış seqmentindən daha çox təsirlənəcək və daha çox artıma məruz qalacaq.

***-Mənzil bazarında köhnə yoxsa yeni tikililərə maraq çoxdur?***

-Əlbəttə yeni tikililərə maraq çoxdur. Köhnə tikililərə yalnız şəhərin mərkəzində bəzi xüsusi binalara meyl var. Bəzi şəxslər isə sökülәcək binalarda mənzillər alırlar ki, söküntü zamanı daha çox kompensasiya əldə etsinlər. Bunu çıxmaq şərti ilə digər hallarda əsasən yeni tikililərə maraq var. Adətən daha çox aztəminatlı ailələr köhnə tikililərə üz tutur. Eyni zamanda sahibkarlar var ki, daha böyük məbləğ əldə etmək üçün söküntü ehtimalı olan binalardan mənzillər alırlar. Amma komfort üçün yeni tikililərə daha çox maraq var. Ümumilikdə, daha çox yeni tikililər maraq böyükdür.

***Anar Kəlbiyev***

14_27 IYUl-QARA.qxd 4/16/2026 9:30 PM Page 8



# "Qanunsuz" evlərlə bağlı sensasiyalı iddialar

## Onların sənədləşdirilməsi dalana dirənir? - Problemi yaradan da məmurlardır, həllinə məsul olanlar da...



***Azərbaycanda on minlərlə ailə qanunsuz evlərin sənədləşdirilməsini gözlədiyi halda, Dövlət Su Ehtiyatları Agentliyinin (ADSEA) sədri Zaur Mikayılov gözlənilməz açıqlama ilə çıxış edib. O, sənədsiz evlərə qaz, su, işıq verilməyəcəyini anons edib.***

Qurum rəhbəri bildirib ki, "2024-cü ildə Nazirlər Kabinetinin qərarı ilə qanunsuz tikilən və sənədi olmayan evlərə su, qaz və işığın qoşulması qadağan olunub, bunun artıq cinayət məsuliyyəti də var". Mikayılov vurğulayıb ki, bu, stimullaşdırmanın azalmasıdır. Yəni insanlar bir yerdə ev tikməzdən əvvəl, sənədsiz olacağı təqdirdə kommunal xidmətlərdən istifadə edə bilməyəcəklərini anlayacaqlar.

Yerli media isə sual edir: ""Qanunsuz" evin necə tikilməsi 10, hətta 20-30 il həmin evdə məskunlaşmanın necə olması çoxlu suallar doğurur. Yaşayış məntəqəsi təyinatlı olmayan torpaqda bəzi hallarda 2-3 mərtəbəli evlər inşa olunan zaman necə olub ki, heç bir aidiyyəti dövlət qurumu ondan xəbər tutmayıb? Ümumiyyətlə, qanunsuz ev nə deməkdir? Qanunsuz tikili varsa, ona icazə verən məmur və ya məmurlar var. Bəs haradadır indi o məmurlar?" ("Qafqazinfo").

Ötən həftə isə Azərbaycan Rieltorlar Assosiasiyasının rəhbəri, daşınmaz əmlak və inşaat üzrə ekspert Elnur Azadov demişdi ki, son illər qanunsuz tikililərin leqallaşdırılması məsələsi tez-tez müzakirə olunur: "Bu istiqamətdə bir sıra addımlar atılır. Gələcəkdə müəyyən formada amnistiya tətbiqi mümkündür. Lakin bütün tikililərin leqallaşdırılması nəzərdə tutulmur. Xüsusilə kommunikasiya xətlərinin, dəmir yolu və magistral yolların mühafizə zolaqlarında, yüksək gərginlikli elektrik xətlərinin altında, yaxud digər qadağan olunmuş ərazilərdə inşa edilən tikililər leqallaşdırılmayacaq".

Beləliklə, görünən odur ki, "qanunsuz" evlərin sənədləşdirilməsi ilə bağlı bir müddətdir verilən nikbin açıqlamalara, proqnozlara bir o qədər də ümid bəsləməyə dəyməz. Əlbəttə, problemin kifayət qədər mürəkkəb olduğunu inkar etmək olmaz, lakin onun həlli istiqamətində hətta dövlət başçısı səviyyəsində konkret tapşırıqlar verildiyi halda, bəzi məmurların məsələnin yoluna qoyulmasına könülsüz və həvəssiz yanaşdığı da göz qabağındadır. Məşhur el məsəlində deyildiyi kimi, həyatda bircə ölümün çarəsi yoxdur. Belə olan təqdirdə sənədsiz evlərin leqallaşdırılmasının bu qədər dalana dirənməsi anlaşılmazdır.

Unutmayaq ki, Prezidentin daşınmaz əmlakın qeydiyyatına dair 16 iyul 2025-ci il tarixli fərmanı ilə həmin əmlakın qeydiyyatına aid hüquqi təminat və qanunvericilik bazası daha da təkmilləşdirilib. Əmlak Məsələləri Dövlət Xidmətindən ölkə rəhbərinin imzaladığı fərmana əsasən, 100 minə yaxın sənədsiz evin qeydiyyata alınmasının nəzərdə tutulduğu bildirilib. Ən önəmli dəyişikliyin isə yeni tənzimləmələrə uyğun olaraq, yaşayış və bağ evlərinə dair texniki inventarlaşdırma orqanları tərəfindən 2001-ci il yanvarın 1-dək tərtib olunan texniki pasportlar (müvafiq tikililərin yerləşdiyi həyətyanı torpaq sahələrinin ölçüsü göstərildiyi halda) hüquqmüəyyənedici sənədlərin siyahısına əlavə edilib.

Rəsmi mətbuatın yazdığına görə, Azərbaycanda, xüsusilə, 1990-cı illərdən etibarən, şəhərsalma proseslərinin genişlənməsi, əhalinin sürətlə artması və miqrasiya səbəbindən çoxsaylı yaşayış sahələri planlaşdırılma və hüquqi sənədləşmə aparılmadan tikilib. Bu vəziyyət Bakı və Abşeron yarımadası ilə bərabər, ölkənin digər iri şəhərləri və rayon mərkəzlərində də müşahidə olunub. Hazırda ölkədə 500 mindən çox sənədsiz ev mövcuddur. Bu evlərin böyük bir hissəsi uzun müddət orada yaşayan vətəndaşlara məxsusdur və sosial baxımdan həssas təbəqələr bu kateqoriyaya daxildir.

Xatırladaq ki, Prezidentin 13 yanvar 2015-ci il tarixli müvafiq fərmanı ilə təsdiq edilən siyahı "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanun qüvvəyə minənədək mövcud olan tikililər üçün hüquqi əsas yaratsa da, bəzi hallar istisna olunurdu. Lakin 2015-ci il oktyabrın 30-da həmin qanuna edilən əlavə və dəyişikliklərlə bu proses daha da təkmilləşdirildi. "Nəhayət, son dəyişikliklərlə sözügedən siyahıya yenidən baxılması və onun daha da genişləndirilməsi artıq yüz minlərlə vətəndaşın yaşadığı evlərin hüquqi status qazanmasına imkan verir. Bu qərar, eyni zamanda, təkcə sosial ədalətin bərpası baxımından deyil, həm də ölkənin daşınmaz əmlak bazarının tənzimlənməsi və genişlənməsi cəhətdən ciddi əhəmiyyət daşıyır" - Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin orqanı olan "Xalq qəzeti" ötən il yazmışdı.

Bütün bunlara baxmayaraq, xüsusən Bakı, Abşeron və Sumqayıta son günlər yağan yağışların ardınca baş verən subasmalardan sonra sənədsiz evlərin leqallaşdırılması məsələsi ilə bağlı müzakirələrdən anlaşılan odur ki, sözügedən mülkiyyətlərin böyük əksəriyyətinin taleyi hələ də qaranlıq olaraq qalır. Həmin subasmaları daha çox qanunsuz məskunlaşmanın nəticəsi olaraq təqdim edənlər unutmamalıdırlar ki, bu proses vəzifəli şəxslərin gözü qarşısında baş verib. Azərbaycanda məmurdan xəbərsiz iki daşı-daş üstə qoymağın mümkünsüzlüyünü hər kəs bildiyi halda vətəndaşı günahkar çıxarmaq, yalnız onu cəzalandırmağa çalışmaq absurddur.

Ona görə də aidiyyatı qurumlar problemə artıq daha operativ və effektiv, ən əsası isə ədalətli yanaşmağa başlamalıdırlar. Üstəlik, məlum məsələ ilə bağlı qanunvericici baza son 10 ildə xeyli təkmilləşdirildiyi halda!

İndiyədək xeyli vaxt itirilib, əgər zamanında problemin həllinə məsul şəxslər ciddiyyət göstərsəydilər, bəlkə də, biz indi hansısa subasmanın ağır fəsadları ucbatından məsələnin yenidən aktuallaşmasına şahid olmayacaqdıq. Heç olmasa, bundan sonra vaxt itirmədən "sənədsiz evlər" dərdinin dərmanı tapılmalıdır...

***Toğrul Əliyev***



# Azərbaycanda bu uşaqlar peyvənd olunacaq

***Azərbaycanda aprelin 19-25-də ”İmmunlaşdırma həftəsi” keçiriləcək.***

Bu barədə ”Unikal”a Səhiyyə Nazirliyindən məlumat verilib. Bildirilib ki, bununla bağlı səhiyyə naziri Teymur Musayev əmr imzalayıb.

Əmrə əsasən respublikanın şəhər və rayonlarında hər hansı səbəbə görə vaksinasiyadan kənarda qalan uşaqların ”İmmunlaşdırma həftəsi” çərçivəsində peyvəndlərə cəlb edilməsi, peyvəndlərlə əhatə səviyyəsi xüsusilə aşağı olan rayonlarda monitorinqlərin aparılması, uşaqların vaksinasiyasını həyata keçirən tibb müəssisələrinə immunlaşdırma tədbirlərinin təşkilində metodiki köməkliyin göstərilməsi, əhalinin bu barədə maarifləndirilməsi kimi məsələlərin təşkili nəzərdə tutulur.

”İmmunlaşdırma Həftəsi” zamanı bir sıra rayonlarda sil-silə tədbirlərin keçirilməsi planlaşdırılır. Həmçinin, respublikanın tibb idarə və müəssisələrində əhaliyə paylanması üçün müxtəlif mövzularda poster və yaddaş vərəqələri hazırlanıb.

Qeyd edək ki, Ümumdünya Səhiyyə Təşkilatının təşəbbüsü ilə 2006-cı ildən etibarən hər il Avropa regionunda ”İmmunlaşdırma həftəsi” keçirilir və Azərbaycan Səhiyyə Nazirliyi də bu tədbirə qoşulur.

# Nazir Adil Kərimli və Anar Ələkbərov "Akinak" filminin premyerasında



***Aprelin 15-də Heydər Əliyev Mərkəzində Mədəniyyət Nazirliyi və Azərbaycan Respublikası Kino Agentliyinin dəstəyi ilə lentə alınan "Akinak" tammetrajlı bədii filminin premyerası keçirilib.***

”Unikal” xəbər verir ki, tədbirdə Heydər Əliyev Mərkəzinin direktoru Anar Ələkbərov, mədəniyyət naziri Adil Kərimli, tanınmış mədəniyyət xadimləri və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Məlumat verilib ki, "Narimanfilm" MMC tərəfindən istehsal olunan ekran əsərinin quruluşçu rejissoru Əməkdar incəsənət xadimi Elxan Cəfərov, ssenari müəllifləri İlqar Safat, Azər Ziyadlı, İrəvani və Lətif Lətifsoy, quruluşçu operatoru Ruslan Ağazadədir.

Filmdə Azərbaycanın qədim dövlətçilik keçmişinə tamamilə yeni ideoloji prizmadan yanaşılır. Ekran əsəri əsasən gənc auditoriya üçün nəzərdə tutulsa da, süjet xətti və vizual həlli ilə bütün yaş qruplarından tamaşaçıların marağına səbəb olacaq.

Filmdə hadisələr indiki Azərbaycan ərazilərində mövcud olmuş qədim İşquz (İç Oğuz) dövlətində cərəyan edir. Düşmən hücumuna məruz qalan dövləti və xalqı xilas etmək üçün vaxtilə Göylərdən göndərilmiş dörd müqəddəs əmanətdən biri olan ”Akinak” qılıncını tapmaq lazımdır. Bu ağır və taleyüklü missiyanı yerinə yetirmək üçün dörd cəsur gənc təhlükələrlə dolu yola çıxır. Onlar hədəfə çatmaq üçün həm real düşmənlərlə, həm də onların qurduğu qaranlıq tilsimlərlə mübarizə aparmalı olurlar.

Sonra ekran əsəri nümayiş olunub. Fentezi elementləri ilə zəngin olan tarixi macəra filmi böyük maraqla qarşılanıb.

Sonda filmin yaradıcı heyəti alqışlarla səhnəyə dəvət olunub. Onlar ekran işinin gəlməsi barədə fikirlərini bölüşüblər.

Qeyd edək ki, "Akinak" filmi may ayından etibarən ölkənin bütün kinoteatrlarında geniş tamaşaçı kütləsinə təqdim olunacaq.

14_27 IYUI-QARA.qxd 4/16/2026 9:31 PM Page 9





# Leyla və Alena Əliyevalar film təqdimatında

***Aprelin 15-də Nizami Kino Mərkəzində İctimai Televiziya və Radio Yayımları Şirkəti ilə Elm və Təhsil Nazirliyinin birgə təşəbbüsü əsasında hazırlanan "Mən, Lalə, bir də Şerlok Holms 2" çoxseriyalı bədii televiziya filminin ikinci mövsümünün təqdimatı keçirilib.***

"Unikal" xəbər verir ki, təqdimat mərasimində Leyla Əliyeva və Alena Əliyeva, mədəniyyət naziri Adil Kərimli, elm və təhsil naziri Emin Əmrullayev iştirak ediblər.

Tədbirdə çıxış edən elm və təhsil naziri Emin Əmrullayev layihənin ərsəyə gəlməsində əməyi olan hər kəsə təşəkkürünü bildirib. Nazir İctimai Televiziya və Radio Yayımları Şirkətinin fəaliyyətini yüksək qiymətləndirərək, son illər televiziya məkanında keyfiyyətli məzmunun təqdim olunmasının, xüsusilə təhsilyönümlü layihələrə göstərilən diqqətin təqdirəlayiq olduğunu vurğulayıb. Onun sözlərinə görə, bu kimi layihələr uşaqların maariflənməsinə, dünyagörüşünün formalaşmasına mühüm töhfə verir.

Layihənin ideya müəllifi Tural Sevdimalı çıxışında bildirib ki, layihənin əsas məqsədi uşaqlara düzgün dəyərləri aşılamaqdır. "Biz istəyirik ki, uşaqlar dostluğu düzgün seçməyi, doğru qəhrəmanları tanımağı və ən əsası, güvənə biləcəkləri insanları ayırd etməyi öyrənsinlər", - deyə o vurğulayıb.

Tural Sevdimalı gələcək planlarla bağlı məlumat verərək qeyd edib ki, artıq Kino Agentliyi ilə əməkdaşlıq formalaşıb. Onun sözlərinə görə, layihə "pitching" mərhələsini uğurla keçib və yaxın zamanda "Mən, Lalə, bir də Şerlok Holms" filminin tammetrajlı versiyasının çəkilişi planlaşdırılır. Filmin gələcəkdə kinoteatrlarda nümayişi nəzərdə tutulur.

Qeyd edək ki, layihənin ideya müəllifi Tural Sevdimalı, ssenari müəllifləri isə Tural Sevdimalı və Vüqar Hüseynovdur. Ailəvi, detektiv və komediya janrlarını özündə birləşdirən serial hər biri 50 dəqiqə olmaqla 12 seriyadan ibarətdir.

Serialın birinci mövsümündə hadisələr Muradın yay tətilini keçirdiyi kənddə cərəyan edir. Onun kitablarla tanışlığı, xüsusilə Artur Konan Doylun əsərləri vasitəsilə Şerlok Holms obrazının təxəyyülündə canlanması süjetin əsas xəttini təşkil edir. Layihənin başlıca məqsədi mütaliənin insan həyatındakı rolunu ön plana çıxarmaqdır. Eyni zamanda, Muradın zəngin təxəyyülü vasitəsilə müxtəlif tarixi və mədəni şəxsiyyətlər canlandırılır ki, bu da seriala maarifləndirici məzmun qazandırır. Layihədə uşaqlara dürüstlük, məsuliyyət, böyüklərə hörmət, ətraf mühitə qayğı və ictimai davranış qaydaları kimi dəyərlər aşılanır.

Yeni mövsümdə hadisələr 11 yaşlı Muradın ətrafında inkişaf edir. O, "Əlaçı" bilik yarışmasının qalibi olmağı arzulasa da, qaydalara əsasən yarışmada iştirak hüququnu itirir. Buna baxmayaraq, Murad Lalənin öz kəndlərini təqdim etməsi üçün ona dəstək olur və hazırlıq prosesində fəal iştirak edir. Süjet xəttində uşaqlar arasında rəqabət, dostluq münasibətləri və seçim qarşısında qalmaq kimi mövzular ön plana çıxır. Muradın xəyali dostu olan məşhur detektiv Şerlok Holms bu mövsümdə də ona dəstəyini davam etdirir.

"Mən, Lalə, bir də Şerlok Holms 2" serialı aprelin 19-dan etibarən İctimai Televiziya və Radio Yayımları Şirkətinin efirində tamaşaçılara təqdim olunacaq.(Azərtac)

# Misir Mərdanovun qalmaqallı qohumunun adı yeni skandalda

## Allahverdi Dəmirovun oğlunun yarım milyon manata yaxın pulunu necə mənimsəmək istəyiblər? - Əsas sual bu deyil, başqadır...

***Yola salmaq üzrə olduğumuz həftə Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Aytən Əliyevanın sədrliyi ilə biznesmen Allahverdi Dəmirovun icra nümayəndəsi işləyən oğlu Seyfəddin Dəmirlinin külli miqdarda pulunu ələ keçirməkdə ittiham olunan Rafiq Vəliyevin cinayət işi üzrə məhkəmə prosesi keçirilib.***

Dövlət ittihamçısı ittiham aktını elan edib.

Lent.az-ın məlumatına görə, təqsirləndirilən Rafiq Vəliyev özünü qismən ( CM-nin 320.1 maddəsi ilə) təqsirli bildiyini bildirib. Növbəti proses 20 aprel saat 15:00-a təyin edilib.



Xatırladaq ki, Rafiq Vəliyevə qarşı Cinayət Məcəlləsinin 320.1-ci (Hüquq verən və ya vəzifədən azad edən vəsiqəni və ya digər rəsmi sənədi istifadə etmək məqsədi ilə saxtalaşdırma və ya qanunsuz hazırlama, yaxud bu cür sənədi satma, habelə eyni məqsədlə Azərbaycan Respublikasının saxta dövlət təltifini, ştampı, möhürü, blankı hazırlama və ya satma), 320.2-ci 320.2-ci (rəsmi sənədləri, dövlət təltiflərini, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama, satma və ya saxta sənədlərdən istifadə etmə), 29,178.3.2-ci (dələduzluq, külli miqdarda ziyan vurmaqla törədilməyə cəhd) və 178.4-cü (dələduzluq - xüsusilə külli miqdarda ziyan vurmaqla törədildikdə) maddələri ilə ittiham irəli sürülüb.

Qeyd edək ki, məşhur biznesmen Allahverdi Dəmirovun icra nümayəndəsi işləyən oğlu Seyfəddin Dəmirlinin külli miqdarda pulunu ələ keçirmək istəyiblər. Belə ki, əvvəldən tanıdığı Rafiq Vəliyev Dəmirliyə yalan vəd verərək ondan 400 min manatdan çox pul almağa razılaşıb. Lakin dələduzluq əməli başa çatmayıb. R.Vəliyev tutularaq cinayət məsuliyyətinə cəlb edilib. İstintaq vaxtı onun daha iki nəfərə qarşı dələduzluq cinayəti də ortaya çıxıb. R.Əliyev barəsində sonradan həbslə bağlı olmayan "polisin nəzarəti altına verme" qətimkan tədbiri seçilib. Ona Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə yekun ittiham elan edilib. İş üzrə Seyfəddin Dəmirli, Gülnarə Rəhimova və Rüxsarə İbrahimova zərərçəkmiş qismində tanınıb.

Seyfəddin Dəmirli bir neçə ay əvvəl Binəqədi Rayon İcra Hakimiyyəti başçısının Biləcəri qəsəbəsi üzrə nümayəndəsi təyin edilib. O, vaxtilə Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti İdarəsinə və Bakı 6 saylı Yol İstismarı MMC-yə rəhbərlik etmiş Allahverdi Dəmirovun oğludur.

Allahverdi Dəmirov isə keçmiş təhsil naziri Misir Mərdanovun yaxın qohumu, bəzi qaynaqlarda isə hətta xalası oğlu kimi təqdim edilir. O, Mərdanovun nazir olduğu vaxt Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti İdarəsinin rəisi işləyib. Elə ən ciddi korrupsiya ittihamlarına da həmin vəzifədə ikən tuş gəlib. Hətta həmin vaxt Baş Prokurorluq xüsusilə məktəblərin tikintisi zamanı yol verilmiş qanun pozuntuları ilə əlaqədar aparılmış araşdırmaların nəticəsi barədə rəsmi məlumat açıqlamış, məlum olmuşdu ki, Maliyyə Nazirliyi ilə birgə aparılan araşdırma nəticəsində Bakı şəhəri Suraxanı rayonu Suraxanı qəsəbəsində yerləşən 85 nömrəli və Xəzər rayonu Mərdəkan qəsəbəsində yerləşən 123 nömrəli orta məktəblərin əsaslı tikintisi zamanı ciddi qanun pozuntularına yol verilməsi faktları ortaya çıxıb. Müəyyən edilib ki, tikintisinin smeta dəyəri 341.965 manat olan 85 saylı məktəbdə iş həcmi 35.261 manat şişirdilib, 11.666 manat iş isə faktiki yerinə yetirilməyərək dövlət vəsaiti mənimsənilib. 849.821 manat smeta dəyəri olan 123 saylı məktəbdə isə iş həcminin 50.359 manat şişirdildiyi, 28.793 manat məbləğində işin isə ümumiyyətlə görülməyərək dövlət əmlakının mənimsənildiyi aşkarlanıb. "Layihə-smeta sənədlərindən kənarlaşmalara, keyfiyyətsiz işlər görülməsinə və bu kimi digər qanun pozuntularına baxmayaraq qeyd olunan məktəb binaları Təhsil Nazirliyinin müvafiq komissiyası tərəfindən qəbul olunmaqla istismara verilib" - deyə Baş Prokurorluq bildirmişdi. Ümumiyyətlə isə o vaxt nazir vəzifəsindəki Mərdanovun yaxın qohumu olması səbəbilə Dəmirovun tikinti işlərindən ağlasığmaz dərəcədə varlandığı iddia edilirdi. Hətta 2011-ci ildə onun bu səbəbdən hüquq-mühafizə orqanları tərəfindən saxlanıldığına dair xəbərlər də yayılmışdı. Bundan başqa, KİV araşdırmaları ilə də o zaman əksər məktəblərin inşa və təmiri zamanı başqa çoxsaylı faktlar ortaya çıxmışdı. Düzdür, indi Misir müəllim mediaya açıqlamalarında ictimaiyyəti nazir olduğu dövrdə rəhbərlik etdiyi qurumda rüşvət və korrupsiya hallarının olmadığına inandırmağa çalışır. Lakin yaddan çıxarır ki, heç də hamı yaxın tarixi unudacaq qədər hafizə problemindən əziyyət çəkmir. Həmin dövrdə təhsil sahəsinin az qala bazara çevrildiyi əksəriyyət çox yaxşı xatırlayır; ən əsası isə xüsusən də təmir-tikinti adı altındakı yeyintilər həm rəsmi, həm qeyri-rəsmi faktlarla açıq-aydın ortadadır.

Elə indi mediada geniş biznes əlaqələri və çoxsaylı əmlakları ilə tanınan qohumu A.Dəmirovun da "öz yükünü" Mərdanovun təhsil naziri olduğu dönəmdə tutduğuna şübhə yoxdur. Üstəlik, Dəmirovun adı nazirlikdəki vəzifəsini itirəndən sonra da müxtəlif korrupsiya cinayət işləri ilə bağlı hallanıb.

Bütün bunların fonunda onun böyük sərvət sahibinə çevrilməsi təəccüblü deyil. Əks təqdirdə bir qəsəbədə icra nümayəndəsi işləyən oğlunda o qədər pul haradan olsun?! Üstəlik, həmin məbləğ, böyük ehtimalla, Dəmirovlar üçün dəryada damladırsa...

***Sənan Mirzə***

14_27 IYUI-QARA.qxd 4/16/2026 9:31 PM Page 10



# Məmurların bahalı xidməti avtomobil sevdası bitmək bilmir

## Keçmiş nazirlə məşhur oliqarxın şirkətləri isə bu "sevda"dan böyük pullar qazanırlar - İlginc rəqəmlər...

***Son bir ildə Azərbaycanda ayrı-ayrı dövlət qurumları xidməti avtomobillərin alınması üçün çox sayda tenderlər keçiriblər. Bu tenderlərlə bağlı araşdırmalardan görünür ki, bir çox hallarda bir xidməti avtomobilin alınması üçün ən azı 100 min manatın xərclənməsi nəzərdə tutulub.***

Məsələn, Fövqəladə Hallar Nazirliyi (FHN) Tikintidə Təhlükəsizliyə Nəzarət Dövlət Agentliyinin "Azərdövlətlayihə" Dövlət Baş Layihə İnstitutu üçün yeni xidməti avtomobil sifariş edib. Avtomobilin qiyməti isə 253 min 148 manat müəyyənləşib. Məlum olub ki, FHN sedan tipli xidməti minik avtomobilinin alınması üçün "İmprotex Motors" şirkəti ilə müqavilə bağlayıb.



Qeyd edək ki, BMW, "BMW Motorrad", MINI, "Rolls-Royce" və "Yamaha" kimi məşhur markaların Azərbaycana rəsmi idxalçısı olan "İmprotex Motors" şirkəti 1997-ci ildə dövlət qeydiyyatına alınıb. Şirkətin qanuni təmsilçisi Azərbaycanın keçmiş əmək və əhalinin sosial müdafiəsi naziri Füzuli Ələkbərovdur. O, 2006-2013-cü illərdə nazir vəzifəsində çalışıb.

"Regional Su Meliorasiya Xidməti" publik hüquqi şəxsin 3 (üç) ədəd "BMW 520i" markalı xidməti nəqliyyat vasitələrinin satın alınması ilə bağlı elan etdiyi tenderin qalibi də Füzuli Ələkbərovun şirkəti olub. Qalib şirkətə bunun üçün 364.140 manat vəsait ödənildiyi aydınlaşır. Beləliklə, bir xidməti avtomobilin dəyəri 120 min manatdan da artıq olub.

Gəncə Dövlət Universiteti (GDU) isə 1 ədəd xidməti avtomobil üçün "Lexus-Bakı" MMC ilə satınalma müqaviləsi imzalayıb. Həmin avtomobilə görə şirkətə 117 300 manat ödənildiyi məlum olur.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına əsasən, "Lexus-Bakı" MMC 23 dekabr 2010-cu ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 1000 manatdır. Şirkətin qanuni təmsilçisi Qafarlı Pərviz Mahmud oğludur. Şirkət Azərbaycanda "Lexus" markasının rəsmi dileridir və "İSR Holdinq"ə daxildir. Bu holdinq iş adamı İsgəndər Xəlilova məxsusdur. GDU-nun yüksək qiymətə aldığı xidməti avtomobilin isə rektor Yusif Yusifov üçün alındığı iddia edilib. Həmin iddia GDU tərəfindən nə təsdiq, nə də təkzib olunub.

"Azəristiliktəchizat" isə bu quruma İlham Mirzəliyevin yeni rəhbər təyinatından cəmi 5 ay sonra xidməti avtomobil almaq üçün tender elan etmişdi. Tenderdən 1 ədəd xidməti avtomobilin alınması üçün 100 min 100 manat pul ayrıldığı anlaşılırdı. Lakin sonradan həmin tenderin ləğv edildiyi barədə xəbər yayıldı.

Bu ayın əvvəllərində Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Nəqliyyat İdarəsinin yeni xidməti avtomobillər aldığı barədə məlumat yayılıb. İqtisadiyyat.az-ın əldə etdiyi həmin məlumata görə, müqavilədə 2 ədəd (yük avtomobili və evakuator) xidməti nəqliyyat vasitəsinin satın alınması nəzərdə tutulub. Qeyd edilib ki, avtomobillər 2025-ci il istehsallı olmalıdır. Avtomobillərin satın alınmasının 200 min manata (1 ədədi 100 min manata) başa gələcəyi proqnozlaşdırılıb.

Azərbaycan respublikası Maliyyə Nazirliyi yanında Bakı Konqres Mərkəzi isə "Ramma" Qapalı Səhmdar Cəmiyyəti (QSC) ilə satınalma müqaviləsi imzalayıb. Müqavilədə xidməti minik avtomobillərinin satın alınması nəzərdə tutulur və onun maliyyə dəyəri 2 639 070 manatdır. Mərkəz bu məbləğə D seqmenti (orta sinif) üzrə 21, E seqmenti (üst orta sinif) üzrə isə 15 ədəd sedan tipli xidməti minik avtomobili almağı planlaşdırır. Beləliklə, bir avtomobil orta hesabla təxminən 175 min manata başa gələcək.

İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin reyestr məlumatlarına görə, avtomobillərin alınacağı "Ramma" QSC 2010-cu ildə qeydiyyatdan keçib. Nizamnamə kapitalı 2000 manatdır. Şirkətin qanuni təmsilçisi Tahir Məmmədovdur.

"Ramma" QSC-nin internet səhifəsində şirkətin ağır texnika satışı ilə məbğul olduğu bildirilir. Şirkət Develon, Shacman, Shantui, Lovol və Solis kimi brendlərin Azərbaycandakı rəsmi distribütorudur. Tahir Məmmədov haqqında isə heç bir məlumat yoxdur.

Onu da deyək ki, Azərbaycan məmurlarının bahalı xidməti avtomobil iddiaları neft gəlirlərinin sürətli axını başlayan illərdən yüksəlib. Söhbət 2008-2014-cü illərdən gedir. Həmin illərdə dövlət məmurlarının böyük əksəriyyəti üçün park yenilənib, o dövrün ən bahalı avtomobilləri alınıb. Məmurların bahalı maşın sevdası o qədər ifrata varıb ki, baş nazir Artur Rasizadə 2011-ci ildə "Azərbaycan Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında" qərar imzalayıb. Qərarda bildirilir ki, məqsəd dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlar tərəfindən xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələrinin alınması və istismarı zamanı büdcə vəsaitlərinin səmərəli istifadə olunmasını təmin etmək, bu sahədə nəzarəti gücləndirmək və normativ hüquqi bazanı təkmilləşdirməkdir. Eyni zamanda baş nazir dövlət orqanlarına tapşırıb ki, xidməti minik, xüsusi təyinatlı və digər avtonəqliyyat vasitələrinin dövlət büdcəsində nəzərdə tutulmuş vəsaitlər çərçivəsində alınması, təyinatı üzrə istifadəsi və saxlanılmasına nəzarəti gücləndirsinlər və bu sahədə neqativ hallara yol verilməsinin qarşısını alsınlar.

Mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərlərinə, şəhər və rayon icra hakimiyyətlərinin başçılarına tapşırılıb ki, rəhbərlik etdikləri dövlət orqanlarında və onların yerli bölmələrində, dövlət orqanlarının strukturuna daxil olmayan, tabeliyində olan dövlət büdcəsindən maliyyələşən qurumlarda (idarə, müəssisə və təşkilatlarda) bu qərarla müəyyən edilmiş normalara ciddi riayət olunmasına nəzarət etsinlər.

Üstündən 8 il keçəndən sonra 2019-cu ilin 17 yanvarında Prezident İlham Əliyev imzaladığı "Azərbaycan Respublikasında bir sıra dövlət orqanlarının strukturunun optimallaşdırılması və idarə edilməsinin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Fərmanına dövlət strukturlarının avtomobil təminatı sisteminin təkmilləşdirilməsinə yönəlik tədbirlər daxil edib. Belə ki, fərmanın 8-ci bəndinə əsasən Nazirlər Kabineti üç ay müddətində mərkəzi və yerli icra hakimiyyəti orqanlarında, dövlət adından yaradılan publik hüquqi şəxslərdə və səhmlərinin (paylarının) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə xidməti nəqliyyat vasitələri ilə təmin edilməli vəzifələrin siyahısını Prezidentlə razılaşdırmaqla müəyyənləşdirməlidir. Həmin Fərmandan sonra qərara müxtəlif dövlət qurumları üzrə xidməti avtomobillərin sayını artıran xeyli sayda dəyişiklik olunub. Bunların mühüm bir qismi yeni yaradılan qurumlara xidməti avtomobil limitinin müəyyənləşdirilməsi, qalanları isə mövcud limitlərin artırılması barədədir.

Lakin bir çox dövlət qurumlarının hələ də yüksək qiymətə xidməti avtomobillər aldığına dair məlumatlar gəlməkdədir.

Unutmayaq ki, ölkə rəhbəri dəfələrlə məmurları, dövlət qurumlarını Azərbaycanın özündə istehsal olunan avtomobillərdən istifadə etməyə çağırıb. Onun çağırışlarına cavab olaraq bir neçə qurum qısa müddətdə "NAZ Lifan", "Khazar" avtomobilləri alıblar. Ancaq sonradan bəzi yerli və mərkəzi icra hakimiyyəti orqanları xidməti avtomobillərlə bağlı qoyulan tapşırıqlara laqeyd yanaşdıqları, bu laqeydliklərini hələ də davam etdirdikləri göz qabağındadır.

***Toğrul Əliyev***



# Bu il neçə saxta diplom aşkarlanıb?

***Bu ilin ilk 3 ayında xaricdə təhsil almış 10 nəfərin diplomunun saxta olduğu məlum olub.***

"Unikal" Təhsildə Keyfiyyət Təminatı Agentliyinə istinadən xəbər verir ki, 2026-cı ilin ilk 3 ayında xaricdə təhsil alan şəxslərin diplomlarının tanınması üçün agentliyə 1305 müraciət daxil olub.

Müraciət edənlərdən 1050 nəfərin diplomu tanınıb, 255 nəfərin müraciətinə isə imtina cavabı verilib.

Məlumata görə, 10 nəfərin diplomu saxta olduğu üçün tanınmayıb. Həmçinin 2 müraciətə imtina səbəbi lisenziyası olmayan Bakı filialları ilə bağlı olub.

Ən çox müraciət Türkiyədən təhsil alan şəxslərdən gəlib. Belə ki, Türkiyədə təhsil almış 445 nəfər diplom tanınması üçün agentliyə müraciət edib. Daha sonra Rusiya (356 nəfər) və Ukrayna (203 nəfər) gəlir. Digər müraciətlər isə əsasən Avropa və digər ölkələrdə təhsil alan şəxslərə aiddir.

İxtisaslara görə isə ən çox müraciət hüquq sahəsi üzrə olub (135 nəfər). Bundan başqa, iqtisadiyyat (78 nəfər), maliyyə (69 nəfər), tibb (67 nəfər) və biznesin idarə edilməsi (63 nəfər) ixtisasları da üstünlük təşkil edib.

# İrandan Azərbaycana 3546 nəfər təxliyə olunub

***28 fevral saat 08:00-dan 15 aprel saat 10:00-dək İrandan Azərbaycana ümumilikdə 3546 nəfər təxliyə olunub.***

"Unikal" xəbər verir ki, təxliyə olunanlar müxtəlif ölkələrin vətəndaşlarıdır.

Bunlardan 738-i Çin, 620-si Azərbaycan, 384-ü Rusiya, 294-ü Hindistan, 198-i Banqladeş, 195-i Tacikistan, 152-si Pakistan, 137-si İran, 118-i İndoneziya, 84-ü Oman, 57-si Əlcəzair, 46-sı İtaliya, 30-u Almaniya, 27-si Kanada, 26-sı İspaniya, 25-i Fransa, 25-i Qazaxıstan, 21-i Gürcüstan, 21-i Yaponiya, 18-i Səudiyyə Ərəbistanı, 17-si Özbəkistan, 17-si ABŞ, 16-sı Bəhreyn, 16-sı Polşa, 14-ü İsveçrə, 13-ü Nigeriya, 13-ü Belarus, 12-si Macarıstan, 11-i Meksika, 10-iu Böyük Britaniya, 10-u Bolqarıstan, 10-u Konqo Demokratik Respublikası, 9-u Braziliya, 8-i Sudan, 8-i Venesuela vətəndaşıdır.

Bundan başqa, siyahıda BƏƏ, Finlandiya, Slovakiya, Belçika, Qırğızıstan, Rumıniya, Çexiya, Avstraliya və Avstriyanın 6, Serbiya, İsveç,Əfqanıstan, Türkiyə, Yunanıstan, Vyetnamın 5, İordaniya, Filippin, Ukrayna, Şri Lanka, Küveyt və Niderlandın isə hər birinin 4 vətəndaşı yer alır.

Həmçinin Qətər, Xorvatiya, Danimarka, Norveçin 3, Nepal, Livan, Yəmən, Myanma, Kipr, Misir, Sloveniya, Uruqvayın 2, Tunis, Cənubi Afrika, Maldiv adaları, Kuba, Vatikan, Argentina, Bosniya və Herseqovina, Latviya, Beliz və Dominikanın hərəsinin 1 vətəndaşı Azərbaycana keçib.



# Emin Əmrullayev Xaçmazda tədris prosesi ilə tanış oldu

***Aprelin 16-da elm və təhsil naziri Emin Əmrullayev Xaçmaz şəhəri C.Cabbarlı adına 6 nömrəli tam orta ümumtəhsil məktəbində olub.***

"Unikal" xəbər verir ki, əvvəlcə Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev ilə birlikdə ulu öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri qoyulub.

Daha sonra sözügedən təhsil müəssisəsində şəhidlərin xatirəsinə ucaldılmış abidə ziyarət olunub, onların əziz xatirəsi ehtiramla yad edilib.

Nazir məktəbdə yaradılmış şəraitlə tanış olub, sinif otaqlarında keçirilən dərs prosesini izləyib, müəllim və şagirdlərlə görüşüb. Görüş zamanı tədrisin keyfiyyəti, təhsil mühitinin təşkili və şagirdlərin bilik və bacarıqlarının inkişafı məsələləri müzakirə olunub.

Sonra nazir peşə təmayüllü siniflər, STEAM yanaşmasının tətbiq olunduğu tədris mühiti, müasir tədris metodlarının tətbiqi ilə yaxından tanış olub, eləcə də "Rəqəmsal bacarıqlar" layihəsi çərçivəsində təşkil edilən dərsləri izləyib. Məktəbdə həyata keçirilən tədris prosesi və mövcud infrastruktur barədə nazirə ətraflı məlumat təqdim olunub. Nazir tərəfindən təhsil prosesinin daha da təkmilləşdirilməsi, innovativ yanaşmaların genişləndirilməsi və tədrisin keyfiyyətinin artırılması istiqamətində müvafiq tapşırıq və tövsiyələr verilib.

# Ağır cinayətlərdə ittiham olunan daha bir şəxs ölkəmizə ekstradisiya ediləcək




***"Ekstradisiya haqqında Avropa Konvensiyası"nın tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasının vətəndaşı Babayev Səbutər Adil oğlunun ekstradisiyası ilə bağlı Baş Prokurorluq tərəfindən verilmiş vəsatət Türkiyə Respublikasının səlahiyyətli orqanları tərəfindən təmin edilib.***

"Unikal" xəbər verir ki, Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsində aparılan ibtidai istintaq zamanı Səbutər Babayevin mütəşəkkil dəstə tərkibində külli miqdarda narkotik vasitələrin, psixotrop maddələrin, habelə güclü təsir edən maddələrin qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasının gömrük sərhədindən gizli keçirilməsində iştirak etməsi, bundan başqa, onun həmin maddələri satış məqsədilə qanunsuz olaraq əldə etməsi, saxlaması, daşıması və satmasına əsaslı şübhələr müəyyən olunub.

Bu səbəbdən barəsində təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərar qəbul edilib, lakin istintaqdan yayınaraq gizləndiyinə görə o, beynəlxalq axtarışa verilib. Keçirilmiş tədbirlər nəticəsində Səbutər Babayev Türkiyə Respublikasının ərazisində saxlanılıb.

Hazırda təqsirləndirilən şəxsin ölkəmizə gətirilməsi istiqamətində Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən zəruri tədbirlər görülür.

Eyni zamanda, Baş Prokurorluq axtarışda olan şəxslərin xarici ölkələrdə müəyyən edilməsi və onların Azərbaycan Respublikasına gətirilməsi məqsədilə xarici tərəfdaş qurumlarla, o cümlədən Interpol ilə sıx əməkdaşlığı davam etdirir.

# Deputata aid edilən məşhur şirkətlə bağlı böyük müəmma

## Ölkənin əsas apteklər şəbəkəsindən birinin cərimələrdən başı açılmır - Reseptsiz dərman satışı, pul hesablaşmalarında qaydaların pozulması və daha nələr...

***Bu günlərdə məlumat yayılıb ki, Apteklər şəbəkəsinə sahib olan "Dokta" Məhdud Məsuliyyətli Cəmiyyətinə (MMC) məxsus apteklərdə yoxlama aparılıb. Yoxlama Səhiyyə Nazirliyinin Analitik Ekspertiza Mərkəzinin (AEM) əməkdaşları tərəfindən həyata keçirilib.***

Binəqədi rayonunda MMC-yə məxsus aptekdə otaqların divarları və döşəməsi hamar olmaqla özündə toz saxlamayan, dezinfeksiyaedici vasitənin istifadəsi ilə nəm təmizləməyə davamlı olan örtüyə malik olmadığı, dərman vasitəsinin (Fulisinar 15q məlhəm) saxlanma şəraitinin pozulması, resept əsasında buraxılmalı olan (euroxim 100 mg/5 ml.ş 50ml) dərman vasitəsinin reseptsiz satışı faktları aşkar edilib.

"Dokta" MMC barəsində İnzibati Xətalar Məcəlləsinin 452.1 və 452.3 maddələri üzrə protokollar tərtib olunub və işə məhkəmədə baxılıb.

Məhkəmənin hökmü ilə "Dokta" MMC İnzibati Xətalar Məcəlləsinin 452.1 və 452.3-cü maddələrində nəzərdə tutulan inzibati xətaları törətməkdə təqsirli bilinib, 1200 manat məbləğində cərimə edilib. MMC-yə məxsus aptekdə aşkar edilmiş saxlanma şəraiti pozulmuş inzibati xətanın bilavasitə obyekti olan 3 qutu, 15q "Fulisinar" məlhəmin məhv edilməsi barədə də qərar qəbul olunub.

Qeyd edək ki, əczaçılıq sahəsində fəaliyyət göstərən "Dokta" MMC 22 sentyabr 2008-ci ildə qeydiyyata alınıb. Nizamnamə kapitalı 1000 AZN olan şirkətin qanuni təmsilçisi Muxtarov Elməddin Fəxrəddin oğludur. Millət vəkili Cavanşir Feyziyev barəsində mediada dərc edilən araşdırma materiallarında da "Dokta" MMC-nin deputata məxsus olduğu iddia edilir. Hətta sözügedən MMC onun əczaçılıq sahəsində ilk şirkəti kimi göstərilir.

Cavanşir Feyziyevin həm də "Avromed" şirkətinin sahibi olduğu bildirilir. Bu şirkət dərman bazarının ən iri şirkətlərindən sayılır.

O da maraqlıdır ki, sabiq deputata aid olan "Dokta" son zamanlar dəfələrlə cərimə olunub. Məsələn, təkcə ötən ilin ilk 9 ayı ərzində "Dokta" MMC-də aparılan operativ vergi nəzarəti üzrə - Əhali ilə pul hesablaşmalarının aparılması qaydalarına riayyət olunması vəziyyəti haqqında AKT-a əsasən, bu əczaçılıq şirkəti bir dəfə 1000 manat, 6 dəfə ayrı-ayrılıqda 6000 min manat maliyyə sanksiyası tətbiq edilib.

Araşdırmalarımız "Dokta"nın 2024-cü ildə də dəfələrlə cərimələndiyini deməyə əsas verir. Həmin il bu şirkət hətta İnzibati Xətalar Məcəlləsinin 221.1-ci (Bilə-bilə keyfiyyətsiz, normativ-texniki sənədlərin tələblərinə cavab verməyən, mənşəyi məlum olmayan, yararlılıq müddəti bitmiş, "Dərman vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməmiş dərman vasitələrinin satışı, satış məqsədi ilə saxlanması və ya idxalı, habelə saxta dərman vasitələrinin istehsalı, satışı, satış məqsədi ilə saxlanması və ya idxalı - bu əməllər az miqdarda törədildikdə ) maddəsi ilə ittiham olunub. Ümumiyyətlə, şirkətin İnzibati Xətalar Məcəlləsi üzrə cərimələndiyi maddələr kifayət qədər "rəngarəngdir". Yuxarıdakılardan əlavə, sözügedən MMC son illərdə:

- adıçəkilən Məcəllənin 215.4-cü maddəsi (qanunvericiliyə uyğun olaraq sertifikasiyadan keçməyən şəxslərin (işçilərin) praktik tibb və əczaçılıq fəaliyyətinə buraxılmasına görə);
- 451-ci maddəsi (nəzarət markası ilə markalanmalı olan malların, məmulatların və məlumat materiallarının belə nəzarət markası olmadan satış və ya yayılma məqsədi ilə saxlanmasına, istehsal binasının hüdudlarından kənara çıxarılmasına, satılmasına və ya digər üsullarla yayılmasına görə) və sair maddələr üzrə də cərimələndiyi barədə məlumatlar yayalıb.



"Dokta"nın mütəmadi şəkildə cərimələrə məruz qalması maraq doğurur. Bu, adıçəkilən MMC-nin idarəçiliyi baxımından ciddi problemlərin olduğuna dair qənaət yaradır.

Vurğulamaq yerinə düşər ki, Azərbaycanda inhisarda olan ən başlıca sahələrdən biri də dərman idxalı və satışıdır. Sözügedən sahə faktiki olaraq bir neçə iri apteklər şəbəkəsinin nəzarətindədir, onların arxasında isə əsasən mühüm post sahibləri dayanırlar. Məsələn, elə Cavanşir Feyziyevə aid edilən 3 apteklər şəbəkəsi məlumdur: "Avromed", "Dokta" və Vita". Hərçənd, deputatın özü 2023-cü ildə yerli KİV-ə açıqlamasında Azərbaycan əczaçılıq bazarında fəaliyyət göstərən heç bir şirkətin ona, ailə üzvlərinə və qohumlarına aidiyyatı olmadığını bildirib. Lakin "Avromed"in qurucusunun Feyziyev olduğu vaxtilə rəsmi şəkildə təsdiqini tapmışdı. Hərçənd, indi onun rəsmi saytında belə şirkətin tarixi ilə bağlı bir cümləyə də rast gəlmək mümkün deyil. "Dokta" və Vita" MMC-lər isə ölkənin aparıcı apteklər şəbəkəsi siyahısında yer alsalar da, heç rəsmi saytları da yoxdur və hazırkı yüksək texnologiyalar, innovasiyalar dövründə bu, xeyli qəribədir...

***Sənan Mirzə***

14_27 IYUl-QARA.qxd 4/16/2026 9:31 PM Page 12



## 5.3.8. Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# YUNESKO-nun mənzil-qərargahında Azərbaycanın milli geyim kolleksiyasının dəfiləsi nümayiş olundu

## Modelyer Leyla Babazadə: "Geyimlərə Qarabağ bölgəsinin xalçaları üzərindəki ornamentləri həkk etmişdim"

***Qloballaşan dünyada hər bir xalqın öz mədəni kimliyini qoruyub saxlaması, eləcə də dünyaya tanıtması vacibdir. Mədəni irsin təbliği ölkənin müsbət imicinin formalaşmasına xidmət edir, tolerant, multikultural və qədim ənənələrə malik bir ölkə kimi tanınmasını möhkəmləndirir. Bu proses həm də mədəni diplomatiyanın mühüm alətinə çevrilərək digər xalqlarla əlaqələrin inkişafına, qarşılıqlı anlaşmanın dərinləşməsinə töhfə verir.***

Odur ki, Azərbaycan xalqının qədim tarixini, adət-ənənələrini, bayramlarını, milli irsini dünyaya tanıtmaq bu baxımdan mühüm əhəmiyyət kəsb edir.

Aprel ayının 7-də YUNESKO-nun mənzil-qərargahında Novruz bayramı təşkil edilib. Azərbaycan və dünyanın 12 ölkəsi ənənəvi Novruz bayramını Parisdəki YUNESKO-nun mənzil-qərargahında birgə qeyd ediblər.

Ölkəmizlə yanaşı, Əfqanıstan, İran, İraq, Türkiyə, Özbəkistan, Türkmənistan, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Hindistan, Monqolustan və Pakistan tədbirin təşkilatçıları qismində çıxış edib.

Açılışda hər 13 dövlətin adından çıxış edən Tacikistanın YUNESKO yanındakı daimi nümayəndəsi Dilşod Kamolzadə Rəhimi Novruzun mənəvi əhəmiyyətini vurğulayıb və onun, bu bayramı qeyd edən bütün xalqları birləşdirən mədəni irsin ən mühüm nümunəsi olduğunu bildirib. Tədbirdə həmçinin YUNESKO-nun Baş direktoru Xalid Əl-Ənani, Fransada akkreditə olunmuş diplomatik korpusun, diaspor təşkilatlarının nümayəndələri və digər qonaqlar iştirak ediblər.

Qeyd edək ki, Novruz bayramı hələ 2009-cu ildə YUNESKO-nun Qeyri-maddi mədəni irs üzrə Reprezentativ siyahısına daxil edilib.

Rəsmi hissədən sonra iştirakçı ölkələr milli musiqi və rəqs nümunələrindən ibarət zəngin proqram təqdim edib.

Tədbirdə həmçinin azərbaycanlı modelyer Leyla Babazadə tərəfindən yaradılmış milli geyim kolleksiyasının dəfiləsi mədəni hissənin xüsusi bəzəyi olub.

Qeyd edək ki, Leyla Babazadə Azərbaycanın mədəni irsindən ilham alan dizayner və yaradıcı tədqiqatçı kimi tanınır. Onun yaradıcılığının əsasını qədim ornamentlərin və rəmzi formaların öyrənilməsi, onların müasir estetik baxımdan yenidən dərk edilməsi təşkil edir. Eyni zamanda, hər bir geyim tarixin, yaddaşın və mədəni kimliyin daşıyıcısı kimi təqdim olunur.



Bu tədbirdə həmçinin qonaqlar müxtəlif mətbəxlərin ənənəvi yeməklərinin dadına baxa biliblər. Azərbaycan kulinariyası dolma, plov və qutablarla təmsil olunub.

"Unikal" qəzeti Azərbaycanın milli ornamentlərinin üzərində həkk olunduğu geyim kolleksiyasını YUNESKO-nun mənzil-qərargahında ilk dəfə nümayiş etdirən azərbaycanlı modelyer Leyla Babazadə ilə söhbətləşib.

YUNESKO-nun mənzil-qərargahında keçirilən möhtəbər tədbirdən böyük təəssüratlarla qayıdan gənc modelyer qəzetimizə müsahibəsində ölkəmizi təmsil etməkdən böyük qürur hissi ilə danışıb.

O, bildirib ki, milli ornamentlərimizi daşıyan geyim kolleksiyası ilə bu tədbirdə iştiraka dəvət elə YUNESCO-dan gəlib.

Dəfiləyə hazırlığa iki aydan çox vaxt sərf edən modelyer böyük ruh yüksəkliyi ilə çalışdığını söyləyib: "Mən YUNESKO-nun mənzil-qərargahında baş tutacaq bu tədbirin məsuliyyətini dərk edirdim. Ölkəmiz bu məkanda milli musiqiləri, mətbəxi ilə təmsil olunmuşdu. Milli mədəniyyətimizin bir parçası olan geyimlərlə təqdimat isə ilk dəfə təşkil olunurdu. Odur ki, mən bu tədbirə daha məsuliyyətlə yanaşırdım. Əvvəlcə milli ornamentlərin şəkillərini çəkdim. Daha sonra parçalar seçdim. Qarabağ bölgələrinin ornamentlərini milli geyimlərin üzərinə həkk etdim. Bu ornamentlərin hər biri bu bölgənin qədim xalçalarının üzərindən götürülmüşdü. Bunlar bolluq-bərəkəti, xöşbəxtliyi əks etdirən ornamentlərdir. Hansı ki, bu ornamentlər xalqımızın tarixini, təfəkkürünü və estetik baxışlarını əks etdirən rəmzlər toplusudur. Hər biri xüsusi məna daşıyan ornamentlər milli ruhumuzu təcəssüm etdirir".

L.Babazadə minə yaxın insanın iştirak etdiyi tədbirdə Azərbaycanın dəfiləsinin böyük maraqla qarşılandığını söyləyib. O, bildirib ki, müxtəlif ölkələrin öz milli geyimləri ilə iştirak etdiyi tədbirdə ilk çıxış edən də məhz Azərbaycan dəfiləsi olub. Bu isə ölkəmizə olan böyük hörmət və inamdan irəli gəlirdi.

"Bu tədbirdə iştirak mənim üçün həm çox həyəcanverici idi, həmçinin də çox qürurverici. Bu mənim üçün çox məsuliyyətli iş idi. Çünki Azərbaycanı, onun mədəniyyətini təbliğ edirdim. Tədbir iştirakçıları arasında milli ornamentlərimizin əks olunduğu geyimlərə böyük maraq yarandı. Onlar ornamentlərin mənası, tarixi ilə maraqlanırdılar. Mən bu tədbirdə Azərbaycan stendində kəlağayılarımızı da nümayiş etdirirdim", - deyə L.Babazadə söyləyib.

L.Babazadə əlavə edib ki, təqdim olunan kolleksiya Azərbaycan xalça sənətinin dərin köklərinə əsaslanaraq hazırlanmışdır. Kolleksiyada istifadə edilən ornamentlər arasında Qaraqoyunlu dövrünə aid Şəmsəddin motivləri, Qərbi Azərbaycan və Borçalı bölgəsinə məxsus Çobankərə xalça naxışları, eləcə də Qarabağ məktəbinin incə və zərif elementləri xüsusi yer tutur. Bundan əlavə, Malıbəyli xalçasının kompozisiya xüsusiyyətləri də dizaynlarda müasir interpretasiya ilə öz əksini tapmışdır.

Hər bir geyimdə ornamentlər yalnız dekorativ element kimi deyil, tarixi yaddaşın və mədəni kimliyin daşıyıcısı kimi işlənmişdir. Rəng harmoniyası, naxışların yerləşdirilməsi və formaların balansı xüsusi dəqiqliklə seçilmiş, ənənə ilə müasirliyin incə sintezi yaradılmışdır.

Leyla Babazadə qeyd edib ki, əsas məqsədi əsrlər boyu formalaşmış Azərbaycan xalça sənətini və ümumilikdə milli ornamentlərimizi müasir dizayn vasitəsilə yenidən təqdim edərək, onları beynəlxalq səviyyədə tanıtmaq və gələcək nəsillərə estetik və mədəni dəyər kimi ötürməkdir. Dizayner hesab edir ki, Azərbaycan mədəniyyəti öz dərinliyi, zənginliyi və simvolizmi ilə dünya səhnəsində xüsusi yer tutmağa layiqdir və bu irs müasir interpretasiya vasitəsilə daha geniş auditoriyaya çatdırılmalıdır.

***Gülayə Mecid***

**Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**



# Qəbul imtahanlarının 2-ci mərhələsinin 1-ci cəhdinə qeydiyyat başladı

***I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanının 2-ci mərhələsinin 1-ci cəhdində iştirak etmək istəyən abituriyentlər 2026-cı il aprelin 16-dan 29 aprel saat 23:59-dək şəxsi kabinetinin istifadəçi adı və parolundan istifadə etməklə DİM-in müvafiq internet səhifəsinə (//eservices.dim.gov.az/erize-bak/cehd1/) daxil olaraq imtahan vermək istədikləri ixtisas qrupunu seçib qeydiyyatdan keçməlidirlər.***

Bu barədə "Unikal"a Dövlət İmtahan Mərkəzindən məlumat verilib.

Qeyd edilib ki, bu il tədris dili, riyaziyyat və xarici dil fənləri üzrə buraxılış imtahanı vermiş, lakin 18 fevral - 5 mart tarixlərində aparılan ərizə qəbulunda iştirak etməyən cari ilin məzunlarının müraciətləri nəzərə alınaraq onların da I, II, III və IV ixtisas qrupları üzrə qəbul imtahanının ikinci mərhələsində iştirak etmək üçün qeydiyyatdan keçməsinə imkan yaradılıb.

Müsabiqədə iştirak ödənişlidir.

"Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamının 1.2-ci bəndinə əsasən, ali təhsil müəssisələrinə qəbulu ilə bağlı imtahanda iştirak üçün ilk dəfə müraciət edən Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında (imtahanın ikinci mərhələsinin yalnız bir cəhdində) iştirakı dövlət büdcəsinin vəsaiti hesabına olur.

"Azərbaycan Respublikasında ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu imtahanlarının təşkilinin tənzimlənməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 24 fevral tarixli 2694 nömrəli Sərəncamının 1.3-1.7-ci bəndlərinə əsasən aşağıdakı kateqoriyalardan olan Azərbaycan Respublikası vətəndaşlarının (yalnız ümumi təhsil müəssisələrini bitirən) qəbul imtahanında (bütün mərhələ və cəhdlər üzrə) iştirakı dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilir:

- Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin uşaqları;
- şəhid ailəsinin üzvləri;
- valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar;
- məcburi köçkün statusu olan şəxslər;
- I və II dərəcə əlilliyi müəyyən edilmiş şəxslər, o cümlədən sağlamlıq imkanları məhdud 18 yaşınadək uşaqlar.

Digər abituriyentlər isə ərizəni təsdiq etmək (etdirmək) üçün tələb olunan məbləği şəxsi kabinetlərindəki hesablarına əlavə edirlər və həmin məbləğ ərizə təsdiq olun duq dan sonra onların şəxsi kabinetlərindəki hesablarından çıxılır.

Bundan əlavə qeyd edilib ki, tam (11 illik) orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinə qəbul olmaq üçün müsabiqə şərtini ödəmiş, lakin 18 fevral - 5 mart tarixlərində keçirilən ərizə qəbulu zamanı "Tam orta təhsil bazasında orta ixtisas təhsili müəssisələrinin müsabiqəsində iştirak etmək istəyirəm" bəndini seçməyən abituriyentlərə yayda kolleclərin ixtisas seçimində iştirak etməyə icazə veriləcək.

Həmçinin ali təhsil müəssisələrinə qəbul imtahanının ikinci mərhələsinin birinci cəhdi II və III ixtisas qrupları üzrə mayın 24-də, I və IV qruplar üzrə isə iyunun 7-də keçiriləcək. III ixtisas qrupu üzrə həm DT, həm də TC altqrupunu seçən abituriyentlər üçün coğrafiya fənni üzrə əlavə imtahan iyunun 7-də keçiriləcək.

I ixtisas qrupu üzrə həm Rİ, həm də RK altqrupu üzrə imtahan vermək istəyən abituriyentlər ikinci mərhələnin birinci cəhdində bir, ikinci cəhdində isə digər altqrupu seçə bilərlər. Abituriyentlər istəklərindən asılı olaraq hər iki cəhddə eyni altqrup üzrə də iştirak edə bilərlər.

14_27 IYUl-QARA.qxd 4/16/2026 9:32 PM Page 13



# Bu ilin əvvəlinə qədər Balakən rayonunun demoqrafik göstəriciləri belə olub

Rayon əhalisinin sayı ötən ilin əvvəlindən 264 nəfər və ya 0,3 faiz artaraq 2026-cı il yanvar ayının 1-i vəziyyətinə 101283 nəfərə çatmışdır. Əhalinin 15852 nəfərini və ya 15,7 faizini şəhər, 85431 nəfərini və ya 84,3 faizini kənd sakinləri, 49800 nəfərini və ya 49,2 faizini kişilər, 51483 nəfərini və ya 50,8 faizini isə qadınlar təşkil edir.

**Əhalinin təbii hərəkətinin əsas göstəriciləri**

| | Nəfər | | | Əhalinin hər 1000 nəfərinə | | |
|---|---|---|---|---|---|---|
| | 2025-ci ildə | 2024-cü ildə | artım (+) azalma (-) | 2025-ci ildə | 2024-cü ildə | 2025-ci il 2024-cü ilə nisbətən, faizlə |
| Təbii artım | 262 | 312 | -50 | 2,6 | 3,1 | 83,9 |
| Doğulanlar | 833 | 898 | -65 | 8,2 | 8,9 | 92,1 |
| Ölənlər | 571 | 586 | -15 | 5,6 | 5,8 | 96,6 |
| Nikahlar | 446 | 435 | +11 | 4,4 | 4,3 | 102,3 |
| Boşanmalar | 157 | 146 | +11 | 1,6 | 1,4 | 114,3 |

2025-ci il ərzində Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən rayonda 833 doğulan körpə qeydə alınmış və 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 8,9-dan 8,2-yə düşmüşdür. Doğulan körpələrin 465 nəfəri və ya 55,8 faizi oğlan uşaqları, 368 nəfəri və ya 44,2 faizi isə qız uşaqları olmuşdur.

2025-ci il ərzində rayonda 571 ölüm halı qeydə alınmış və 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 5,8-dən 5,6-ya düşmüşdür.

2025-ci il ərzində Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən rayonda 446 nikah və 157 boşanma halları qeydə alınmışdır. 2024-cü illə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 4,3-dən 4,4-dək və boşanmaların sayı 1,4-dan 1,6-dək artmışdır.

2025-ci il ərzində Daxili İşlər Nazirliyinin və Dövlət Miqrasiya Xidmətinin müvafiq qurumları tərəfindən qeydə alınmış rayona daimi yaşamaq üçün gələn və rayondan gedənlərin miqrasiya saldosu müsbət 2 nəfər təşkil etmişdir.




*Balakən Rayon Statistika İdarəsinin rəisi Əsəbəli Alqayev*

# Cinayətdə şübhəli bilinən 37 nəfər saxlanıldı

***Aprelin 15-də ölkə ərazisində qeydə alınan 35, əvvəlki dövrlərdən bağlı qalan 2 cinayətin açılması polis əməkdaşları tərəfindən təmin olunub.***

DİN-in Mətbuat Xidmətindən "Unikal"a verilən məlumata görə, axtarışda olduğuna görə ümumilikdə 86, o cümlədən borclu şəxs qismində axtarışda olan 71 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Narkotiklərlə əlaqəli 20, qanunsuz saxlanılan silah-sursatın götürülməsi və aşkarlanması ilə bağlı 3 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 37 nəfər saxlanılıb.

# Məktəb direktoru olan xanım 69 min manat mənimsəyib Türkiyəyə qaçdı - Ölkəyə gətirilir

***"Ekstradisiya haqqında" 13 dekabr 1957-ci il tarixli Konvensiyanın tələblərinə uyğun olaraq, Azərbaycan Respublikasının vətəndaşı Hüseynova Sevinc Əlisəfa qızının ekstradisiyası ilə bağlı Baş Prokurorluq tərəfindən verilmiş vəsatət Türkiyə Respublikasının səlahiyyətli orqanları tərəfindən təmin edilib.***

"Unikal" xəbər verir ki, Bakı şəhərinin Suraxanı rayon prokurorluğunda ibtidai istintaqı aparılan cinayət işi üzrə məktəb direktoru vəzifəsində işləyən Hüseynova Sevinc Əlisəfa qızının qulluq mövqeyindən istifadə etməklə dələduzluq yolu ilə bir neçə şəxsin ümumilikdə 69 min manat məbləğində pulunu ələ keçirməsinə əsaslı şübhələr müəyyən edilib.



Bu səbəbdən Sevinc Hüseynovanın qulluq mövqeyindən istifadə etməklə, xeyli miqdarda ziyan vurmaqla, təkrar törədilməklə dələduzluq və vəzifə səlahiyyətlərindən sui-istifadə cinayət əməllərini törətməkdə təqsirləndirilməsinə dair qərar qəbul olunub və o, istintaqdan yayınaraq gizləndiyinə görə barəsində beynəlxalq axtarış elan edilib. Keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində Sevinc Hüseynova Türkiyənin ərazisində saxlanılıb.

Sevinc Hüseynovanın ölkəmizə gətirilməsi istiqamətində Ədliyyə Nazirliyinin Penitensiar Xidməti tərəfindən tədbirlər görülür.

Eyni zamanda, Baş Prokurorluq axtarışda olan şəxslərin xarici ölkələrdə müəyyən edilməsi və onların Azərbaycan Respublikasına gətirilməsi məqsədilə xarici tərəfdaş qurumlarla, o cümlədən Interpol ilə sıx əməkdaşlığı davam etdirir.

# "Səbinə" şadlıq sarayının fəaliyyəti dayandırıldı

***Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti səlahiyyətləri daxilində ölkə ərazisində yanğın təhlükəsizliyinin təmin edilməsi məqsədilə zəruri tədbirlərin görülməsini davam etdirir.***

Bu barədə "Unikal"a FHN-in mətbuat xidmətindən məlumat verilib.

Bildirilib ki, Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Şamil Kamilov küçəsi, 7 ünvanında fəaliyyət göstərən "Səbinə" şadlıq sarayında keçirilən yoxlama zamanı yanğın təhlükəsizliyi sahəsində bir sıra nöqsanlar aşkar edilib. Belə ki:

- obyektdə avtomatik yanğınxəbərverici siqnalizasiya qurğusu tam quraşdırılmayıb;
- elektrik təsərrüfatı "Elektrik Qurğularının Quraşdırılması Qaydaları"nın tələblərinə uyğun quraşdırılmayıb;
- obyekt ilkin yanğınsöndürmə vasitələri, daxili yanğın kranları, lülə və atıcı şlanqlarla təmin edilməyib;
- obyektdə yanğın su hovuzu mövcud deyil;
- təxliyə planı tərtib edilməyib.

Beləliklə, mövcud vəziyyət onu göstərir ki, obyektin istismarının davam etdirilməsi nəticəsində orada hər an baş verə biləcək yanğın qısa müddətdə genişlənərək facıəni qaçılmaz edəcək.

Qeyd olunanları nəzərə alaraq, yanğın təhlükəsizliyi norma və qaydalarının tələblərinin kobud pozulması faktları aşkar edilmiş Bakı şəhəri, Sabunçu rayonu, Bakıxanov qəsəbəsi, Şamil Kamilov küçəsi, 7 ünvanında yerləşən "Səbinə" şadlıq sarayının fəaliyyətinin dayandırılması barədə Qərar qəbul olunub və Qərarın bir nüsxəsi obyektin nümayəndəsinə təqdim edilib.



# Ölkəyə gətirilən elektromobillərin sayı məlum oldu

***Bu ilin yanvar-mart aylarında Azərbaycana xaricdən 299 ədəd yalnız elektrik mühərriklə hərəkətə gətirilən nəqliyyat vasitələri gətirilib.***

"Unikal" bu barədə Dövlət Gömrük Komitəsinə istinadən xəbər verir.

Məlumata görə, bu sayda elektromobillərin idxalının dəyəri 7,898 milyon ABŞ dolları olub.

Bu göstərici ötən ilin eyni dövrü ilə müqayisədə miqdar ifadəsi ilə 129 ədəd və ya 43,1%, dəyər ifadəsi ilə isə 7,660 milyon ABŞ dolları və ya 2 dəfə azdır.



Ümumilikdə, bu ilin yanvar-mart aylarında Azərbaycana 339,6 milyon ABŞ dolları dəyərində 15 351 ədəd avtomobil idxal edilib. Avtomobil idxalı ötən ilin eyni dövrü ilə müqayisədə miqdar ifadəsi ilə 7 585 ədəd və ya 1,5 dəfə, dəyər ifadəsi ilə 60,6 milyon ABŞ dolları, yaxud da 15,1% azalıb.

Dövr ərzində ölkəyə 50,972 milyon ABŞ dolları dəyərində 280 ədəd sürücü daxil olmaqla, 10 nəfər və ya daha çox adam daşımaq üçün nəzərdə tutulmuş mühərrikli nəqliyyat vasitələri, 251,916 milyon ABŞ dolları dəyərində 13 359 ədəd əsasən adam daşımaq üçün nəzərdə tutulmuş minik avtomobilləri və digər mühərrikli nəqliyyat vasitələri idxal edilib.

# DSMF-nin gəlir və xərcləri artdı

***Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin (ƏƏSMN) tabeliyində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri bu ilin I rübündə proqnozla müqayisədə 9 faiz və ya 183 mln. manat çox olmaqla 2 mlrd. 132 mln. manat təşkil edib.***

"Unikal" xəbər verir ki, fondun gəlirləri tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları həmin dövrdə proqnoza nisbətən 3 faiz və ya 41 mln. manat artaraq 1 mlrd. 559 mln. manat olub.

Bu ilin 3 ayında DSMF-nin xərcləri isə 2 mlrd. 53 mln. manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 10 faiz və ya 189 mln. manat çoxdur.



# Canını Vətənə fəda edən Osman Bayramov...

***Ürəyi Vətən eşqi ilə döyünən və 44 günlük haqq savaşımızda müqəddəs şəhidlik zirvəsinə ucalan qeyrətli oğullarımızdan biri də Osman Bayramovdur. O, Azərbaycanın hər qarışını özünə əziz bilib, odlardan-alovlardan keçərək göstərdiyi igidliklə tarix yazıb. Cismən aramızdan getsə də, mənən qəlblərdə əbədi yaşayır. Bu gün onun adı çəkiləndə hər bir azərbaycanlı qürur hissi keçirir.***



Osman Zeyqəm oğlu Bayramov 1987-ci il fevralın 13-də Biləsuvar rayonunun Ağalı kəndində anadan olub. Uşaqlıqdan zəhmətkeşliyi, dürüstlüyü və mərdliyi ilə seçilib. Məktəbdə yaxşı oxuyub, onu ən çox düşündürən isə ermənilərin torpaqlarımıza təcavüzü olub. Orta təhsilini başa vurduqdan sonra hərbi xidmətə yollanıb. Xidməti cəbhə bölgəsində keçib və bunu böyük şərəf sayıb. Nizam-intizamı, qorxmazlığı və cəsarəti ilə həm komandirlərinin, həm də döyüş yoldaşlarının hörmətini qazanıb.

Vətənə bağlılığı onu yenidən cəbhəyə qaytarıb. Osman müddətdən artıq hərbi qulluqçu kimi xidmətini davam etdirib, daim təlimlərdə iştirak edib və peşəkar döyüşçü kimi formalaşıb. O, hər zaman Vətən uğrunda canından keçməyə hazır olub və yaxşı bilirdi ki, qələbə asan qazanılmır.

Vətən müharibəsi başlayanda Osman da minlərlə igid kimi ön cəbhədə yerini alıb. Ən qaynar nöqtələrdə döyüşərək düşmənə ağır zərbələr endirib. Xüsusilə Füzuli istiqamətində gedən döyüşlərdə böyük şücaət göstərib, bir neçə yaşayış məntəqəsinin azad olunmasında iştirak edib. Döyüş yoldaşlarının təhlükəli mövqelərdən çıxarılmasında göstərdiyi cəsarət onu hər kəsə sevdirib.

O, 4 oktyabr tarixində Füzuli istiqamətində gedən ağır döyüşlərdə son nəfəsinə qədər vuruşaraq 33 yaşında şəhidlik zirvəsinə ucalıb. Osman Bayramov ölümündən sonra dövlət tərəfindən "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif olunub.

Şəhidlik ən uca zirvədir. Bu zirvəyə yüksələnlər heç zaman unudulmur. Biləsuvarın qəhrəman oğlu Osman Bayramov da daim xalqımızın qəlbində yaşayacaq.

***Zəfər Orucoğlu***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# 2025-ci ildə Yevlax şəhəri üzrə "əmtəə bazarı haqqında" statistika

***2025-ci ildə pərakəndə ticarət dövriyyəsinin həcmi 559009,4 min manat olmuş və keçən illə müqayisədə müqayisəli qiymətlərlə eyni səviyyədə olmuşdur.***




2025-ci ildə ölkə üzrə pərakəndə ticarət dövriyyəsində Yevlax rayon üzrə pərakəndə ticarət dövriyyəsi 0,8 faiz təşkil etmişdir.

Pərakəndə ticarət dövriyyəsinin quruluşunda ərzaq malları, içkilər və tütün məmulatlarının xüsusi çəkisi 61,6 faiz, yaxud 344447,7 min manat, qeyri-ərzaq mallarının xüsusi çəkisi 38,4 faiz, yaxud 214561,7 min manat olmuşdur.

2025-ci ildə ticarət şəbəkəsindən rayonun hər bir sakini orta hesabla 3958,8 manat və ya keçən illə müqayisədə 184,7 manat çox istehlak malları almışdır.

2025-ci ildə hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fiziki şəxslər tərəfindən keçən ilin müvafiq dövrü ilə müqayisədə əhaliyə müqayisəli qiymətlərlə 0,3 faiz az istehlak malları satılmışdır.

2025-ci ilin hesabat dövründə pərakəndə satışın 10,0 faizini (55749,7 min manatını) rəsmi qeydiyyatdan keçmiş müəssisələr, 51,8 faizini, (289707,3 min manatını) bazar və yarmarkalar, 38,2 faizini, (213552,4 min manatını) isə fiziki şəxslər təşkil etmişdir.

Hüquqi şəxs yaratmadan ticarətlə məşğul olan fiziki şəxslər tərəfindən əhaliyə əvvəlki illə müqayisədə 23298,4min manat çox istehlak malları satılmışdır.

2025-ci ildə topdansatış ticarət dövriyyəsi 12068,0 min manat təşkil edərək, əvvəlki ilə nisbətən 10,1 faiz və ya 1104,1 min manat çox olmuşdur.

2026-cı il yanvar ayının 1-i tarixinə ticarət şəbəkə və anbarlarında 23145,1 min manatlıq mal ehtiyatları olmuşdur. Mal ehtiyatlarının 1383,7 min manatı topdansatış, 21761,4 min manatı pərakəndə ticarət şəbəkələrin anbarlarında olmuşdur.

Pərakəndə mal ehtiyatlarının 2731,9 min manatı rəsmi qeydiyyatdan keçmiş müəssisələrin, 19029,5 min manatı hüquqi şəxs yaratmadan fəaliyyət göstərən fərdi sahibkarların şəbəkələrində olmuşdur.

***Yevlax Şəhər Statistika İdarəsinin aparıcı məsləhətçisi Mehriyyə Vəliyeva***

# Məhkəmə ərini öldürən qadın və sevgilisinə bu cəzanı verdi

***Sevgilisi ilə birlikdə ərini öldürməkdə təqsirləndirilən Leyla Abbasova və Zahir Soltanov cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb.***

"Unikal"ın verdiyi məlumata görə, Bakı Ağır Cinayətlər Məhkəməsinin hakimi Səbinə Məmmədzadənin sədrliyi ilə keçirilən prosesdə çıxışlar olub.

Təqsirləndirilən şəxslərin vəkilləri müdafiə çıxışları ediblər və təqsirləndirilən şəxslər son söz deyib. Daha sonra hökm oxunub. Hökmə əsasən, Leyla Abbasova 15 il, Zahir Soltanov isə 18 il müddətinə azadlıqdan məhrum ediliblər.

Xatırladaq ki, ötən prosesdə dövlət ittihamçısı İsmayıl Cavadlı ittiham nitqi ilə çıxış edərək məhkəməyə Leyla Abbasovanın 17 il, Zahir Soltanov isə 19 il müddətinə azadlıqdan məhrum edilməsini təklif etmişdi.

Qeyd edək ki, hadisə paytaxtın Sabunçu rayonu ərazisində qeydə alınıb.

Belə ki, 2025-ci il avqustun 9-da DİN 29 yaşlı İkram Piriyevin Zabrat qəsəbəsində yaşadığı evdə qətlə yetirilməsi ilə bağlı məlumat yayıb. Zahir Soltanov və Leyla Abbasova 15-ci polis şöbəsinin əməkdaşları tərəfindən şübhəli şəxs qismində saxlanılıblar.

Hər iki şəxsə qarşı Cinayət Məcəlləsinin 120.2.9-cu (təqsirkar şəxs üçün aşkar surətdə köməksiz vəziyyətdə olan adamı öldürmə, habelə adam oğurluğu və ya girov götürülməsi ilə bağlı adam öldürmə) maddəsilə ittiham irəli sürülüb.

***Orxan Rasifoğlu***

# Goranboyda 2026-cı ilin məhsulu üçün bitkilərin səpini

***Rayonun iqtisadiyyatında kənd təsərrüfatı aparıcı yerə malikdir. Bitkiçilik sahəsində daha çox əkilən əkin sahələri taxılçılıq, tərəvəz və bostan bitkiləri, yem bitkiləridir. Bundan başqa texniki bitkilərdən pambıq, şəkər çuğunduru, tütün, günəbaxan və lavanda kimi bitkilər də becərilir. Bununla belə təsərrüfatlarda kartof, dən üçün qarğıdalı, meyvə, üzüm və sair kənd təsərrüfatı məhsulları da istehsal edilir.***

2026-cı ilin məhsulu üçün payızlıq bitkilərin kütləvi səpini başa çatmışdır və cari il yanvar ayının 1-i vəziyyətinə 20722,0 hektar sahədə dən və yaşıl yem üçün payızlıq bitkilər səpilmişdir. Səpin aparılmış sahənin 95,9 faizini və yaxud 19869,0 hektarını dən üçün payızlıq bitkilər təşkil etmişdir ki, onun da 5787,5 hektarı buğda, 14081,5 hektarı isə arpa əkinlərinin payına düşür.

Ötən illə müqayisədə dən üçün payızlıq bitkilərin səpin sahəsi 8,7 faiz, o cümlədən buğdanın səpin sahəsi 1,6 faiz, arpanın səpin sahəsi 11,9 faiz artmışdır.

Rayonda yaz-tarla işləri aparılır və 2026-cı ilin yanvar-mart aylarında 2968,6 hektar sahədə və ya 2025-ci ilin eyni dövrü ilə müqayisədə 6,5 faiz çox yazlıq bitkilərin səpini aparılmışdır. Bu dövrdə 682,4 hektar sahədə dənli və dənli paxlalı bitkilər (ondan 149,2 hektarı dən üçün qarğıdalı), 680,3 hektar sahədə tərəvəz, 110,5 hektar sahədə kartof, 9,1 hektar sahədə bostan bitkiləri, 900,2 hektar sahədə dən üçün günəbaxan, 584,1 hektar sahədə çoxillik otlar, 2,0 hektar sahədə birillik otlar əkilmişdir.

**Qrafik 1**

**Yazlıq bitkilərin əkin sahəsinin strukturu**




***Goranboy Rayon Statistika İdarəsi***

# Ağdaşda yazlıq bitkilərin əkini davam edir

***Rayonda fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələri, fərdi sahibkarlar, ailə kəndli və ev təsərrüfatlarında 01 aprel 2026-cı il tarixə 2976,8 hektar sahədə yazlıq bitkilərin əkini aparılmışdır. Bu, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 37,2 hektar və ya 1,2 faiz azdır.***

Əkilmiş yazlıq əkinlərin 1969,0 hektarını yonca, 497,0 hektarını tərəvəz, 230,7 hektarını kartof, 193,6 hektarını yazlıq dənli və dənli paxlalılar (ondan 25,5 hektarını buğda, 18,5 hektarını vələmir) 48,5 hektarını bostan bitkiləri, 31,0 hektarını qarğıdalı, 7,0 hektarını isə dən üçün günəbaxan bitkiləri təşkil etmişdir. Hazırda təsərrüfatlarda yazlıq bitkilərin əkini davam edir.

***Ağdaş Rayon Statistika İdarəsi***

# 2025-ci ildə Siyəzəndə pərakəndə ticarət dövriyyəsi belə olub

***Siyəzən rayonu üzrə 2025-ci ildə pərakəndə ticarət şəbəkələrindən əhaliyə 114925,1 min manatlıq məhsul satılmış, xidmət sahələri tərəfindən 23998,9 min manatlıq ödənişli xidmət göstərilmişdir.***

2024-cü il ilə müqayisədə pərakəndə ticarət dövriyyəsi 1,2 faiz azalmış, əhaliyə göstərilmiş ödənişli xidmətlərdən əldə olunan gəlir isə 1,0 faiz artmışdır. Ticarət şəbəkələrində 73634,2 min manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 41290,9 min manatlıq qeyri-ərzaq məhsulları satılmışdır. 2024-cü il ilə müqayisədə ərzaq məhsullarının, içkilər və tütün məmulatlarının satışı 1,5 faiz, qeyri-ərzaq məhsullarının satışı isə 0,7 faiz azalmışdır.

***Siyəzən Rayon Statistika İdarəsinin rəisi Kamil Xəlilov***

14_27 IYUI-QARA.qxd 4/16/2026 9:33 PM Page 15



# "Yaxın Şərqdəki müharibə bizə təsir etdi" - Ukrayna lideri



***"İsrail-ABŞ arasında İrana qarşı müharibə Ukraynanın qarşıdan gələn qışa hazırlıqlarına təsir göstərərək enerji sektoru üçün riskləri artırıb".***

"Unikal" xəbər verir ki, bu barədə Ukrayna lideri Volodimir Zelenski mətbuat konfransında deyib.

Onun sözlərinə görə, münaqişə enerji riskləri artırıb.

"Və bu, şübhəsiz ki, sosial vəziyyəti və gələn qışa hazırlığı daha da pisləşdirir", - deyə o ifadə edib.

***Gülayə Mecid***

# "Nüvə proqramı əsas mübahisəli məsələdir" - İran XİN



***İran uranın zənginləşdirilməsi səviyyəsi və metodlarını ABŞ ilə müzakirə etməyə hazırdır.***

"Unikal" xəbər verir ki, bu barədə İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmail Bəqayi bildirib.

XİN rəsmisi qeyd edib ki, İranın nüvə proqramı Vaşinqtonla danışıqlarda əsas mübahisəli məsələdir və bu, müzakirə olunmağa davam edəcək: "Zənginləşdirmə metodları və səviyyələri ilə bağlı dialoqa başlamağa hazır olduğumuzu həmişə açıq şəkildə bildirmişik. Bununla belə, qeyd etmişik ki, İran öz ehtiyaclarına əsasən uranı zənginləşdirmək qabiliyyətinə malik olmalıdır".

***Ağarza Elçinoğlu***

# İranda bütün məktəblər distant təhsilə keçir



***İranda ölkə üzrə bütün məktəblər 21 apreldən etibarən distant təhsilə keçəcək.***

"Unikal" xəbər verir ki, bu barədə İran İslam Respublikası Təhsil Nazirliyinin sözçüsü Əli Fərhadi açıqlayıb.

Təhsil Nazirliyinin qərarına əsasən, məktəblərin iş rejimi növbəti xəbərdarlığa qədər distant olacaq.

Bu qərarda hər hansı bir dəyişiklik və məktəblərdə şagirdlərin əyani fəaliyyətlərinin başlaması barədə şagirdlərə və valideynlərə üç gün əvvəldən məlumat veriləcəyi bildirilib.

***Ağarza Elçinoğlu***

# Türkiyədən mühüm addım - 3 ölkə ilə ittifaq yaradılır



***Türkiyə Pakistan, Səudiyyə Ərəbistanı və Misirlə regional təhlükəsizlik platformasının yaradılmasını müzakirə edir.***

Tərəflər bu həftə Antalya Diplomatiya Forumu çərçivəsində danışıqlar aparmağa hazırlaşır.

Məqsəd regional təhlükəsizlik məsələləri üzrə müntəzəm və strukturlaşdırılmış əməkdaşlıq qurmaqdır.

Türkiyənin xarici işlər naziri Hakan Fidan bildirib ki, regiondakı ölkələr bir-birinin suverenliyini və təhlükəsizliyini təmin etməyə öhdəlik götürməlidirlər.

Bu formatın inkişafının iştirakçılar arasında müdafiə və ticarət əlaqələrini gücləndirəcəyi də gözlənilir.

# Danışıqların ikinci mərhələsinin tarixi hələ müəyyən edilməyib




***ABŞ və İran arasındakı münaqişənin həlli ilə bağlı İslamabadda keçiriləcək danışıqların ikinci mərhələsinin tarixləri hələ müəyyən edilməyib.***

"Unikal" xəbər verir ki, bu barədə Pakistan Xarici İşlər Nazirliyinin sözçüsü Tahir Əndrabi brifinqdə bildirib.

Nazirlik əlavə edib ki, İslamabad Vaşinqton və Tehran arasında rabitə kanallarını açıq saxlayır.

Qeyd edək ki, Pakistanın Yaxın Şərq böhranının həlli ilə bağlı məsləhətləşmələri davam edir. Pakistan ordusunun komandanı Asim Munirin Tehrana səfəri ilə eyni vaxtda ölkənin baş naziri Şahbaz Şərif Səudiyyə Ərəbistanına səfər edib. O, daha sonra Qətər və Türkiyəyə səfər edəcək.

***Ağarza Elçinoğlu***

# ABŞ daha 10 min əsgərini Yaxın Şərqə göndərir



***ABŞ aprelin sonuna qədər Yaxın Şərqə 10 mindən çox əlavə əsgər göndərməyi planlaşdırır.***

"Unikal" xəbər verir ki, bunu "The Washington Post" qəzeti yazıb.

Nəşrin məlumatına görə, təxminən 6000 əsgər "USS George HW Bush" təyyarədaşıyan gəmisi və onu müşayiət edən gəmilərlə bölgəyə gələcək. Daha 4200 əsgər isə Boxer desant qrupunun və 11-ci Dəniz Ekspedisiya Bölməsinin tərkibində olacaq.

"USS George HW Bush"un gəlişi ilə bölgədəki Amerika təyyarədaşıyan gəmilərinin sayı, "USS Abraham Linkoln" və "USS Gerald Ford" ilə birlikdə üçə çatıb.

Daha əvvəl bildirilmişdi ki, İranla münaqişənin başlanğıcından bəri əməliyyatda təxminən 50.000 Amerika əsgəri iştirak edib.

Lakin qeyd olunur ki, köçürmə ilə bağlı məlumatlar müstəqil təsdiq almamışdır.

***Gülayə Mecid***

# İran buna görə ABŞ və İsraili məsuliyyətə cəlb edəcək

***Tehran İslam Respublikası rəhbərliyinin sui-qəsdinə görə ABŞ və İsraili məsuliyyətə cəlb etmək niyyətindədir".***

"Unikal" xəbər verir ki, bunu İran Xarici İşlər Nazirliyinin sözçüsü İsmayıl Bəqayi "RİA Novosti" agentliyinə açıqlamasında deyib.

"Biz bunu etməliyik. Və düşünürəm ki, təkcə İran deyil, bütün beynəlxalq ictimaiyyət məsuliyyət tələb edir", - deyə o bildirib.

Bəqayi Vaşinqton və Təl-Əvivin hərəkətlərini müharibə cinayəti və insanlığa qarşı cinayət adlandırıb. O, qeyd edib ki, İran məsul şəxsləri məsuliyyətə cəlb etmək üçün bütün daxili hüquqi mexanizmlərdən, eləcə də beynəlxalq hüquqdan istifadə edəcək.

Xatırladaq ki martın 1-də İran dövlət televiziyası İranın Ali Lideri Əli Xameneinin ABŞ və İsrailin zərbələri nəticəsində öldürüldüyünü bildirmişdi.



***Gülayə Mecid***

# İranlı general Amerikanın quru hücumundan danışdı



***"Ordu bölmələri hazırlıq vəziyyətindədir. Hazırkı ataşkəs bizim üçün müharibə şəraitindən çox da fərqlənmir".***

"Unikal" xəbər verir ki, bu barədə İran ordusunun sözçüsü, briqada generalı Məhəmməd Əkrəminiya televiziya müsahibəsində deyib.

Generalın sözlərinə görə, İsfahanın cənubunda Amerika hərbçilərinə qarşı əməliyyatda Ordu Quru Qoşunları Müdafiə Kollecinin professoru və komandiri Briqada generalı Məsud Zare şəhid olub: "İran İslam Respublikası Ordusunun Baş Komandanının əmri belə idi ki, ölkəyə qurudan hücum olarsa, buna ciddi şəkildə yanaşılmalıdır. O, işğalçılardan heç birinin sağ qalmamalı olduğunu vurğulamışdı.

Amerikalıların ölkəyə sızması baş verəndə Məsud Zare və bir qrup yoldaşı dərhal hadisə yerinə getdilər. Onlar böyük cəsarətlə Amerikanın C-130 təyyarəsini çiyin raketi ilə vurdular. Nəticədə Amerika missiyası dayandırıldı və uğursuzluğa düçar oldular, amerikalılar isə hadisə yerindən qaçmağa məcbur oldular".

***Ağarza Elçinoğlu***



# Ermənistanda partiya üzvləri saxlanıldı

***Ermənistanda seçkilər öncəsi gərginlik fonunda "Güclü Ermənistan" partiyasının 15 üzvü saxlanılıb.***

"Unikal" xəbər verir ki, bu barədə Ermənistan mətbuatı yazıb.

Onlar səhər saatlarında Artaşatdakı "Güclü Ermənistan"ın bütün ofislərində aparılan axtarışlardan sonra, naməlum istiqamətlərə aparılıblar.

Qeyd olunub ki, saxlanılanlardan birinə qarşı ittiham aktı elan olunub.

***Ağarza Elçinoğlu***

14_27 IYUl-QARA.qxd 4/16/2026 9:34 PM Page 16



# Avarçəkmə üzrə “Prezident Kuboku” ilk dəfə Sərsəngdən başlayacaq!

***Gənclər və İdman Nazirliyi ilə Azərbaycan Su İdman Növləri Federasiyasının birgə təşkilatçılığı əsasında 27 aprel - 1 may tarixlərində avarçəkmə və kanoe üzrə “Prezident Kuboku 2026” beynəlxalq reqatası keçiriləcək.***

”Unikal” xəbər verir ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 103-cü ildönümünə həsr edilən reqatada Azərbaycan, Çexiya, Gürcüstan, Almaniya, Yunanıstan, Qazaxıstan, Qırğızıstan, Litva, Moldova, Rumıniya, Serbiya, İsveç, Tacikistan, Türkiyə, Ukrayna və Özbəkistandan 100-dən artıq idmançı mübarizə aparacaq.

“Prezident Kuboku” ilk dəfə olaraq işğaldan azad edilmiş Ağdərə rayonunda, Sərsəng su anbarından start götürəcək. Aprelin 27-də Sərsəngdə akademik, kayak, kanoe, draqon qayıqları və yelkənli qayıqlarda idmançıların nümunəvi çıxışları və yarışlar baş tutacaq. İştirakçı ölkələrin bayraqlarını daşıyan skuterlər su




üzərində dövrə vuracaq. Tədbir çərçivəsində eyni zamanda milli musiqi və rəqs nümunələri nümayiş etdiriləcək. Beləliklə, Suqovuşan və Köndələnçaydan sonra Qarabağda yeni bir məkanda avarçəkmə ənənəsinin əsası qoyulacaq.

Aprelin 28-də Mingəçevirdə yarışların rəsmi paradı və açılış mərasimi keçiriləcək. Saat 18:30-dan etibarən baş tutacaq açılış mərasimində əvvəlcə rəsmi şəxslər və qonaqlar Ümummilli Lider Heydər Əliyevin Mingəçevir şəhərindəki abidəsini ziyarət edəcəklər. Ardınca komandaların Heydər Əliyev prospektindən “Kür” Olimpiya Tədris-İdman Mərkəzinə qədər yürüşü təşkil olunacaq. Parad yekunlaşdıqdan sonra “Kür” Olimpiya Tədris-İdman Mərkəzinin qarşısında rəsmi açılış mərasimi və bədii hissə başlayacaq. Bədii hissədə şoular, müxtəlif rəqs və musiqi nömrələri nümayiş etdiriləcək.

Tədbir “Döngə” qrupunun canlı ifaları ilə davam edəcək. Konsert proqramı möhtəşəm atəşfəşanlıqla yekunlaşacaq.

29 aprel tarixində Qarabağın daha bir dilbər guşələrindən olan Suqovuşan su anbarında yarışlar davam edəcək. “Prezident Kuboku 2026” beynəlxalq reqatasının son yürüşləri 30 aprel - 1 may tarixlərində Mingəçevirdə “Kür” Olimpiya Tədris-İdman Mərkəzində keçiriləcək. Reqataya mayın 1-də yekun vurulacaq.

# Azərbaycanın 16 yaşlı pilotu Portuqaliyada qalib oldu

***Azərbaycanın 16 yaşlı kartinq sürücüsü Davin Cəfərov beynəlxalq arenada sabit performansını və yüksək rəqabət qabiliyyətini bir daha nümayiş etdirib.***

QOL.az xəbər verir ki, Formula 4 üzrə uğurla keçdiyi iki test sessiyasından sonra o, yarış ritmini qorumaq və formasını yüksək səviyyədə saxlamaq məqsədilə Portuqaliyada, KIRO - Karting International West Region trekində keçirilən TAG Livre Portuguese Trophy yarışında iştirak edib.

Yarışda Portuqaliya, İtaliya, Cənubi Afrika, Anqola və Böyük Britaniyadan olan pilotlar mübarizə aparıblar və Davin Cəfərov yüksək sə-



viyyəli çıxış sərgiləyib.

Yarış həftəsonu gərgin mübarizə ilə yadda qalıb, ümumilikdə 8 qəza qeydə alınıb. Buna baxmayaraq, Davin Cəfərov hər üç yarışı səhvsiz və qəzasız başa vurub və 1-ci yeri tutub.

Davin Cəfərov yalnız trekdə deyil, trekdən kənarda da Azərbaycanı qürurla təmsil etməyə davam edir. Onun artıq tanınan “44 qələbə jesti” bu dəfə də digər pilotların və komanda üzvlərinin diqqətini cəlb edib. Davin Cəfərov bildirib ki, bu jest Azərbaycanın 44 günlük Zəfərinə həsr olunub və dözümlülüyün, qətiyyətin, eləcə də milli qürurun rəmzidir.

Bununla yanaşı, sponsorluq məsələlərinin hələ də tam həllini tapmaması səbəbindən azərbaycanlı pilotun cari ildə Formula 4-də rəsmi debütü ilə bağlı qeyri-müəyyənlik davam edir.

# "Qarabağ" - "Sabah" matçının hakimi açıqlandı

***Misli Premyer Liqasının XXVIII turunda keçiriləcək ”Qarabağ” - ”Sabah” oyununu FIFA referisi Elçin Məsiyev idarə edəcək.***

”Unikal” xəbər verir ki, bu barədə Peşəkar Futbol Liqası məlumat yayıb.

”Zirə” - ”Neftçi” matçında isə baş hakim İnqilab Məmmədov olacaq.

**Misli Premyer Liqası**
**III dövrə, XXVIII**

17 aprel

17:00. ”Araz-Naxçıvan” - ”Turan Tovuz”

Hakimlər: Rauf Cabarov, Akif Əmirəli, Şirmamed Mamedov, İslam Məmmədov.

VAR: Fərid Hacıyev.

AVAR: Rəhman İmami.

Hakim-inspektor: Rəhim Həsənov.

AFFA nümayəndəsi: Emin Cəfərov.

”SOCAR Polymer Arena”

19:30. ”Zirə” - ”Neftçi”

Hakimlər: İnqilab Məmmədov, Namiq Hüseynov, Zöhrab Abbasov, Kamran Əliyev.

VAR: Nicat İsmayıllı.

AVAR: Eyyub İbrahimov.

Hakim-inspektor: İmanxan Sultani.

AFFA nümayəndəsi: Anar Şıxəliyev.

Zirə İdman Kompleksinin stadionu

**18 aprel**

15:30. ”Karvan-Yevlax” - ”Şamaxı”

Hakimlər: Emin Əliyev, Zeynal Zeynalov, Müslüm Əliyev, Rəşad Əhmədov.

VAR: Əli Əliyev.

AVAR: Rahil Ramazanov.

Hakim-inspektor: Ceyhun Haşımov.

AFFA nümayəndəsi: Namiq Əliyev.

Yevlax şəhər stadionu

19:30. ”Qarabağ” - ”Sabah”

Hakimlər: Elçin Məsiyev, Elşad Abdullayev, Pərvin Talıbov, İnqilab Məmmədov.

VAR: Tural Qurbanov.

AVAR: Cəmil Quliyev.

Hakim-inspektor: Şahin Cəfərov.

AFFA nümayəndəsi: Azər Əsgərov.

Tofiq Bəhramov adına Respublika stadionu

**19 aprel**

15:30. ”Kəpəz” - ”İmişli”

Hakimlər: Kamal Umudlu, Vüsal



Məmmədov, Orxan İbişov, Namiq Bəkirov.

VAR: Elvin Bayramov.

AVAR: Rəşad Əhmədov.

Hakim-inspektor: Asim Xudiyev.

AFFA nümayəndəsi: Bəhram Qurbanov.

Yevlax şəhər stadionu

18:00. ”Sumqayıt” - ”Qəbələ”

Hakimlər: Vüqar Həsənli, Teymur Teymurov, Tərlan Talıbzadə, Rəvan Həmzəzadə.

VAR: Kamranbəy Rəhimov.

AVAR: Əkbər Əhmədov.

Hakim-inspektor: Feyzulla Feyzullayev.

AFFA nümayəndəsi: Erkin Hüseynov.

Mehdi Hüseynzadə adına Sumqayıt şəhər stadionu



# PSJ "Bavariya"ya, "Atletiko" "Arsenal"a qarşı - Matçlar bu tarixlərdədir

***UEFA Çempionlar Liqasının 2025/2026 mövsümünün yarımfinal mərhələsinin oyun cədvəli müəyyənləşib.***

”Unikal” xəbər verir ki, bu barədə UEFA məlumat yayıb. Belə ki, bu mərhələdə PSJ - “Bavariya” və “Atletiko” - “Arsenal” cütləri üz-üzə gələcək.

**İlk oyunlar**

28 aprel, 23:00

PSJ - Bavariya

29 aprel, 23:00

“Atletiko” - “Arsenal”

**Cavab oyunları**

5 may, 23:00

”Arsenal” - “Atletiko”

6 may, 23:00

”Bavariya” - PSJ

Qeyd edək ki, turnirin finalı mayın 30-da Budapeştdəki “Pu?kaş Arena”da keçiriləcək.

# Messi məhkəməyə verildi



***Mayamidə fəaliyyət göstərən və idman, musiqi tədbirlərinin təşkili üzrə ixtisaslaşan VID şirkəti ”İnter Mayami”nin hücumçusu Lionel Messini və Argentina Futbol Assosiasiyasını (AFA) məhkəməyə verib.***

”Unikal” xəbər verir ki, buna səbəb Argentina millisinin Venesuela ilə yoldaşlıq oyununda Messinin meydanda olmaması göstərilir. Halbuki müqaviləyə əsasən, o zədələnmədiyi halda hər oyunda ən azı 30 dəqiqə oynamalı idi.

Şirkət bu səbəbdən milyonlarla dollar zərər gördüyünü bildirir və kompensasiya tələb edir.

# 42 yaşında karyerasını bitirdi

***Paraqvaylı futbolçu Oskar Kardozo karyerasını bitirib.***

QOL.az xəbər verir ki, 42 yaşlı hücumçu bu barədə özü sosial şəbəkə hesabında məlumat yayıb.

Son klubu ölkəsində “Libertad” olan Oskar daha əvvəl “Benfika”, “Trabzonspor”, “Olimpiakos” kimi komandaların formasını geyinib.

Qeyd edək ki, Kardozo Paraqvay millisində 57 oyunda 12 qol vurub.

# Arda Güler üzr istədi

***”Real”ın yarımmüdafiəçisi Arda Gülər UEFA Çempionlar Liqasında mübarizəni başa vurmalarına reaksiya verib.***

Türkiyəli futbolçu sosial şəbəkə hesabındakı paylaşımında yazıb: ”Bu, belə olmamalı idi. Çox üzr istəyirik. Geri qayıdacağıq. Madrid, davam et”.

”Real” ÇL-in 1/4 finalının cavab matçında ”Bavariya”ya 3:4 hesabı ilə uduzaraq turnirlə vidalaşıb. Arda Gülər oyunda 2 qol vurub. Matç bitdikdən sonra isə o, hakimlə mübahisə etdiyinə görə qırmızı vərəqə alıb.